## Bayden və Zelenski bir saata yaxın telefonla danışıb

### Liderlər Rusiyaya qarşı sanksiyaları gücləndirmək barədə razılığa gəlinib



**ABŞ və Ukrayna prezidentləri Cozef Bayden ilə Vladimir Zelenski arasında telefon söhbəti olub.**

Bu barədə Ağ Ev məlumat yayıb.

Telefon danışığı zamanı Co Bayden Ukraynaya hərbi yardımın bundan sonra da davam edəcəyini bildirib. (apa)

Məlumata görə, danışıq 1 saata yaxın davam edib. Zelenski telefon danışığı ilə bağlı "Twitter" hesabında yazıb ki, Co Baydenlə Rusiyaya qarşı sanksiyaları gücləndirmək barədə razılığa gəlinib.



## Bakıda daha bir şagird qəfil öldü

**Bakıda 8-ci sinif şagirdi qəfil öldü.**

Lent.az xəbər verir ki, Bakı şəhəri Sabunçu rayonunda yerləşən 67 saylı orta məktəbin şagirdi vəfat edib.

8-ci sinif şagirdi Ramal Zaur oğlu Osmanovun qəfil dünyasını dəyişdiyi bildirilir.


№ 64 (5586), 2022-ci il

Qiymətı 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 14 aprel 2022-ci il (cümə axşamı)





## Türkiyə vətəndaşlığını almaq çətinləşdi

### Müraciət şərtlərində dəyişiklik edilib

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin iclasında əcnəbilərin ölkə vətəndaşlığı ala bilməsi üçün lazım olan daşınmaz əmlakın dəyərinin artırılması məsələsi müzakirə edilib.**

Trend TurkicWorld-ə istinadən xəbər verir ki, iclasda Türkiyə vətəndaşlığına müraciət üçün alınacaq daşınmaz əmlakın dəyərinin 250 min dollardan 400 min dollara qaldırılmasına qərar verilib.

*Qeyd edək ki, 2018-ci ilin sentyabrında qəbul edilən qərarla Türkiyədə vətəndaşlıq almaq üçün əmlak dəyəri 1 milyon dollardan 250 min dollara endirilmişdi. Məlumat üçün bildirək ki, bu ilin əvvəlindən bu günə kimi Türkiyədən 5000-ə yaxın əcnəbi vətəndaş daşınmaz əmlak əldə edib.*



## Qurban Qurbanov "Şöhrət" ordeni ilə təltif edilib

**Prezident İlham Əliyev Q.O.Qurbanovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən. Azərbaycan futbolunun inkişafında xidmətlərinə görə Qurban Osman oğlu Qurbanov "Şöhrət" ordeni ilə təltif edilib.

## Albaniyanın Baş naziri Azərbaycan və Türkiyəyə səfər edəcək



**Albaniyanın Baş naziri Edi Rama Azərbaycan və Türkiyəyə səfər edəcək.**

"Report" xəbər verir ki, 14 apreldə Bakıya baş tutacaq səfəri çərçivəsində Edi Rama Azərbaycan Prezidenti İlham Əliyev, Milli Məclisin sədri Sahibə Qafarova və Baş nazir Əli Əsədovla görüşəcək.

Növbəti gün, aprelin 15-də Albaniyanın hökumət başçısı Bakıdan Türkiyəyə səfər edəcək. Edi Rama İstanbul şəhərində TUBİTAK-ın təmsilçiləri ilə görüşəcək.

# Erməni deputatlar Qarabağa buraxılmadı

### Rus sülhməramlılar Bakının tələbini yerinə yetirdi



**Ermənistan parlamentinin 17 deputatı "Qarabağın "müstəqilliyi" uğrunda mübarizəyə dəstək" adlı tədbir təşkil etmək üçün torpaqlarımıza üz tutublar.**

Ancaq Rusiya sülhməramlıları erməni deputatları Qarabağa buraxmayıb, onları Laçının girişində saxlayıblar. Erməni deputatlara Xocalı soyqırımını həyata keçirən Seyran Ohanyan başçılıq edirmiş. Qeyd edək ki, erməni deputatlar ötən ilin sentyabrında Xankəndinə səfər etmişdi. Bu, Azərbaycanın ciddi etirazına səbəb olmaqla yanaşı, sülhməramlıların yarıtmaz fəaliyyətini də növbəti dəfə gündəmə gətirmişdi.

(səh.3)

# Azərbaycanda karantin cərimələri ləğv olunmayacaq



**Halbuki, indiki qiymət artımı, gəlirlərin azalması fonunda bunu müsbət addım kimi qiymətləndirmək olardı**

Karantin dövründə açıq havada maska taxmayan vətəndaşlara yazılmış cərimələrin silinməsi ehtimalı yenidən gündəmdədir. Bəzi vətəndaşlar cərimə məbləğlərinin çoxluğundan şikayətlənir. Eyni zamanda pandemiya ilə əlaqədar sosial durumlarının yaxşı olmaması səbəbindən cərimələri ödəyə bilmədiklərini söyləyirlər.

(səh.4)



## Britaniya Vahid Ələkbərova sanksiya tətbiq etdi

**Böyük Britaniya Ukraynadakı münaqişəyə görə rusiyalı milyarderlərə qarşı tətbiq etdiyi sanksiyalara yeni adlar daxil edib.**

Siyahıya daha 206 fiziki və hüquqi şəxsin adı əlavə olunub.

"TASS"ın məlumatına görə sözügedən adlar arasında Vahid Ələkbərov, Vladimir Yevtuşenkov, Vladimir Yakunin və Viktor Medvedçuk yer alır.

Qeyd edək ki, V.Ələkbərov Azərbaycan əsilli rusiyalı iş adamıdır.

Onu da qeyd edək ki, əvvəlki siyahıda İqor Seçin, Oleq Deripaska, Aleksey Miller, Nikolay Tokarev, Andrey Kostin, Dmitri Lebedev və Roman Abramoviçin adları var idi.

## 1 nəfər vəfat edib, 41 nəfər sağalıb

### Daha 16 nəfər koronavirusa yoluxub




**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 16 yeni yoluxma faktı qeydə alınıb, 41 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 1 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 792 305 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 782 416 nəfər müalicə olunaraq sağalıb, 9 704 nəfər vəfat edib, aktiv xəstə sayı 185 nəfərdir.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 4 343, ötən müddət ərzində isə ümumilikdə 6 755 203 test aparılıb.

## Sərnişinlər qatardan düşürülüb

### Metronun "İnşaatçılar" stansiyasında qatarda nasazlıq yaranıb



**"Həzi Aslanov-Dərnəgül" marşrutu üzrə hərəkət edən qatar "İnşaatçılar" stansiyasında dayanarkən vaqonun bir qapısında nasazlıq yaranıb.**

Bu barədə "Bakı Metropoliteni" QSC-dən bildirilib.

"Qaydalara uyğun olaraq, sərnişinlər düşürülüb. Əvəzinə ehtiyat qatar xəttə buraxılıb", - məlumatda deyilir.

## "Elman Rüstəmov ikinci devalvasiyadan sonra getməli idi"

Asif İbrahimov: "Nailiyyətlərimiz yaxın 2 il ərzində gözəçarpan olacaq"

(səh.4)



## "Biz dünyanı savaş ədəbiyyatı ilə heyrətləndirə bilmərik"

Azər Turan: "Qarabağdakı zəfərimizi dünya ədəbiyyatı faktına çevirə biləcək romanın, bədii mətnin sorağında olmağımız, əslində, absurddur"

(səh.5)



# Ordumuz Türkiyə modelində güclü bir ordu olacaq

## Bu çağırış bu gün və gələcək üçün olduqca vacib çağırış idi



**“Aprel müşavirəsi təkcə 2022-ci ilin üç ayının yekunlarına həsr edilmiş müşavirə deyil, həm də postmüharibə dövrünün bir illik hesabatı idi”.**

Bu barədə Milli Məclisin üzvü Hikmət Babaoğlu deyib. Deputat bildirib ki, Pezident İlham Əliyev əslində son üç ay da daxil olmaqla postmüharibə dövrünün reallıqlarını həm ölkə daxilində həyata keçirilən sosial-iqtisadi layihələr, həm də xarici siyasət və regional münasibətlər kontekstində kompleks olaraq təqdim etdi: ”Prezident əvvəla beynəlxalq məsələlərə nəzər salaraq ərazilərimizin bərpası və Böyük Qayıdış kontekstində əsas məsələlərdən biri kimi Azərbaycanın yaratdığı yeni reallıqların dünya tərəfindən qəbul edilməsi məsələsini aktuallaşdırdı. Bu, özlüyündə olduqca mühüm məsələdir. Çünki Böyük Qayıdış beynəlxalq aləmin baş verən proseslərə münasibəti ilə xeyli dərəcədə əlaqədardır. Ona görə də Prezident İlham Əliyev ilk növbətə dünyanın ən böyük beynəlxalq təşkilatı olan BMT-nin davranışlarına diqqət çəkdi. Qurumun Şuşada keçirdiyi tədbiri yüksək qiymətləndirdi. BMT-Azərbaycan münasibətlərinə xüsusilə Şuşada təşkil edilən birgə tədbirə ermənilərin reaksiyasını isterik adlandırdı. Beynəlxalq təşkilatların postmüharibə reallıqlarını qəbul etmələri kontekstində daha sonra Qoşulmama Hərəkatının, İslam Əməkdaşlığı Təşkilatının, ATƏT-in və nəhayət, Avropa İttifaqının münasibətini müsbət xarakterizə etdi. Bu, özlüyündə şübhəsiz ki, Azərbaycan xarici siyasətinin müharibə dövründə olduğu kimi postmüharibə dövründə də strateji uğuru kimi qiymətləndirilməlidir”.

H.Babaoğlu diqqətə çatdırıb ki, Prezident ATƏT-ə maraqlı çağırış edərək bildirib ki, bu təşkilat ictimai diplomatiyanı canlandıraraq regionda etimad mühitinin yaradılması ilə məşğul ola bilər: ”Yəni vətəndaş cəmiyyəti institutları, media və sair vasitəsilə bu istiqamətdə müəyyən işlər görmək mümkün ola bilər. Avropa İttifaqının mövqeyinə gəldikdə isə Prezident bu vacib qurumun aprel ayının 6-da təşkil etdiyi üçtərəfli görüşdə Ermənistanın Azərbaycanın irəli sürdüyü 5 baza prinsipini qəbul etdiyini bildirdi. Bu, olduqca mühüm hadisədir və regionda sülhlə bağlı proseslərin başlanğıcı kimi də qiymətləndirilə bilər. Prezident öz çıxışının növbəti blokunda milli yaddaşımıza tarixi çağırış etdi. Bu çağırış bu gün və gələcək üçün olduqca vacib çağırış idi. Biz işğalı, Xocalını unutmamalı, daima güclü olmalı, hər cür risklərə həmişə hazır olmalıyıq. Bu kontekstdə dövlət başçısı dərhal ölkəmizdə ordu quruculuğu məsələlərinə toxunaraq Hadrutda yaradılan komando birliklərinə diqqəti çəkdi. Azərbaycan Ordusunun daima güclü olmasının vacibliyini qeyd etdi. Əslində bu fikirlər bundan sonra Azərbaycanda milli ordu modelinin necə olmasına da bir növ istiqamət vermiş oldu. Ordumuz professional hərbi kadrlardan komplektləşdirilərək Türkiyə Ordusu modelində güclü bir ordu olacaq”.

Parlament üzvü bəyan edib ki, növbəti istiqamət regional kommunikasiyaların açılması, xüsusilə Zəngəzur dəhlizi ilə bağlı Ermənistanın üzərinə götürdüyü öhdəliklə bağlı idi: ”Əgər Qərbi Zəngəzurdan keçməklə Naxçıvan və Türkiyəyə bütün növ kommunikasiyalar açılmayacaqsa, Azərbaycan üçtərəfli razılaşmanın bəndlərinin birinin Ermənistan tərəfindən etibarsızlaşdırıldığını irəli sürərək bütün bəndləri etibarsız hesab edə bilər. Bu, Ermənistana sonuncu ciddi xəbərdarlıq kimi də qiymətləndirilə bilər. Nəticədə 12 aprel müşavirəsi ölkədaxili və xarici milli çağırışlar kontekstində mühüm bir hadisə kimi yadda qaldı”.

**İsmayıl**

## Azərbaycanda içməli suyun təhlükəsizliyinə dair yeni tələblər müəyyən edilir

**Azərbaycanda içməli suyun (qablaşdırılmış) və qida məhsullarının emalı prosesində istifadə olunan suyun təhlükəsizliyinə dair tələblər müəyyən edilir.**

Bu barədə məsələ ”Qida təhlükəsizliyi” haqqında yeni qanun layihəsində öz əksini tapıb.

Layihəyə əsasən, içməli su (qablaşdırılmış) və qida məhsullarının emalı prosesində istifadə edilən su qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlarla müəyyən olunan tələblərə uyğun olmalıdır.

İçməli suyun (qablaşdırılmış) və qida məhsullarının emalı prosesində istifadə edilən suyun qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə uyğunluğuna dövlət nəzarəti müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həyata keçirilir.

Təbii mineral suların (qablaşdırılmış) istehsalı, emalı və dövriyyəsi həmin sular müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən bu Qanunun 25.1-ci maddəsinə əsasən qeydiyyata alındıqdan sonra yol verilir.

*Qeyd edək ki, qanun layihəsi aprelin 12-də Milli Məclisin iclasında ikinci oxunuşda qəbul edilib.*

## Taleh Kazımov Mərkəzi Bankın sədri təyin edilib

**Prezident İlham Əliyev Taleh Kazımovun Azərbaycan Respublikası Mərkəzi Bankının sədri təyin edilməsi haqqında Sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, Taleh Tahir oğlu Kazımov Azərbaycan Respublikası Mərkəzi Bankının sədri təyin edilsin.

## Yeni vəzifə verildi

### Elman Rüstəmov Baş nazirin müşaviri təyin olunub



**Elman Rüstəmov Baş nazirin müşaviri təyin olunub.**

Bununla bağlı Baş nazir Əli Əsədov sərəncam imzalayıb.

Məlumatı Nazirlər Kabinetinin mətbuat xidmətindən Trend-ə təsdiqləyiblər.

*Qeyd edək ki, ötən gün Elman Rüstəmov Azərbaycan Mərkəzi Bankının İdarə Heyətinin üzvlüyündən azad edilib.*

## MEDİA-nın əməkdaşı BDU-da mühazirə deyib



**Medianın İnkişafı Agentliyi ilə Bakı Dövlət Universiteti arasında əməkdaşlıq çərçivəsində Jurnalistika fakültəsinin tələbələri ilə görüş keçirilib.**

”Şərq” xəbər verir ki, Agentliyin əməkdaşı Səbinə Seyidova tələbələrə televiziyada proqram strategiyası mövzusunda mühazirə deyib, audiovizual mediada jurnalist fəaliyyətinin incəliklərindən danışıb.

## Rusiya MN-dən xəbərdarlıq

### Təxribat davam edərsə, Kiyevi vuracağıq

**Rusiya Silahlı Qüvvələri Kiyevə zərbə endirə biləcəyini açıqlayıb.**

APA xəbər verir ki, bu barədə Rusiya Müdafiə Nazirliyinin məlumatında bildirilib.

”Biz Ukrayna qoşunlarının təxribat cəhdlərini və Rusiya ərazisindəki hədəflərə zərbələr endirdiyini görürük. Belə təxribat davam edərsə, Rusiya Silahlı Qüvvələri qərarqəbuletmə mərkəzlərinə, o cümlədən Kiyevdə Rusiya ordusunun indiyədək çəkindiyi mərkəzlərə zərbələr endirəcək”, - deyə Rusiya MN-dən bildirilib.

# Başqa ölkələr növbəti hədəf ola bilər

## Zelenski: “Ukraynadan başqa heç kim Rusiyanı dayandıra bilməz”

**”Ağır silahlarla təchiz olunmuş Ukraynadan başqa heç kim Rusiyanı dayandıra bilməz”.**

**Bunu Ukraynanın Prezidenti Vladimir Zelenski videomüraciətində deyib.**

O xatırladıb ki, Rusiya fevralın 24-də Ukraynaya qarşı genişmiqyaslı müharibəyə başlayıb.

”Rusiya əmin idi ki, Ukraynanı 5 günə işğal edəcək. Bu, bizim ölkəmizi məhv etmək, demokratiyamızı çökdürmək üçün onların təyin etdiyi zaman kəsimi idi. Lakin onların kimə qarşı savaşacaqlarına dair aydın bir fikri yox idi. Ruslar bilmirdilər ki, biz öz azadlığımızı necə qiymətləndiririk”, - Zelenski bildirib.



Zelenski qeyd edib ki, ötən bu müddət ərzində Ukrayna qüvvələri Rusiyanın çox sayda silah və hərbi texnikasını məhv edib: ”Lakin bu kifayət deyil. Rusiya hələ də yalnız Ukraynaya deyil, Polşaya, Moldovaya, Rumıniyaya və Baltik ölkələrinə hücum etmək gücünə malikdir. Əgər Ukraynanın azadlığı əldən gedərsə, bu ölkələr növbəti hədəf ola bilər. Buça və Mariupoldan olan görüntülər Rusiyanın dünya üçün real niyyətlərini nümayiş etdirir. Bu, yalnız silahın gücü ilə dayandırıla bilər və bu istiqamətdə indi addım atılmalıdır”.

**Zelenski vurğulayıb ki, Ukraynanın ağır artilleriyaya, zirehli maşınlara, havadan müdafiə sistemlərinə və döyüş təyyarələrinə ehtiyacı var:** ”Mümkün qədər daha çox 152 və 155 millimetrlik artilleriya mərmilərinə, ”Qrad”, ”Smerç”, ”Tornado”, M142 HİMARS-lara, silahlı heyəti daşımaq üçün zirehli avtomobillərə, T-72 və oxşar tanklara, S-300 və BUK kimi havadan müdafiə sistemlərinə ehtiyacımız var. Şəhərlərimizi blokadadan çıxartmaq, milyonlarla ukraynalının və avropalının həyatını xilas etmək üçün hərbi təyyarələr lazımdır.

Qərb ölkələrinin bunu etməsi üçün bütün imkanları var. Ukraynanı silahlandırın, azadlığı xilas edin!”, - Ukrayna lideri vurğulayıb. (apa)

O diqqətə çatdırıb ki, əlavə silahlar olmasa, bu müharibə səfalət, əzab və dağıntıları yayan sonsuz qan gölünə çevriləcək. ”Mariupol, Buça, Kramatorsk - siyahı davam etdiriləcək. Ağır silahlarla təchiz olunmuş Ukraynadan başqa heç kim Rusiyanı dayandıra bilməz”.

# Moped sürücülərinin nəzərinə

## Sürücülük vəsiqəsi lazım olacaq



**Bakıda mopeddən istifadə edən şəxslərlə bağlı nəzarət profilaktiki tədbirlər keçirilib.**

**Bu barədə report-a Bakı Şəhər Dövlət Yol Polisi (DYP) İdarəsinin baş inspektoru polis mayoru Araz Əsgərli deyib. Bildirilib ki, bununla bağlı Səbail rayonu DYP şöbəsinin əməkdaşları tərəfindən tədbir keçirilib. Tədbirdə Daxili İşlər Nazirliyi yanında İctimai Şuranın üzvləri də iştirak edib:**

”Mopedlərin nasaz vəziyyətdə istifadə olunması, yol hərəkəti və təhlükəsizlik qaydalarına əməl olunmaması bunun nəticəsində isə qəzaların sayının artması ictimaiyyətin ciddi şəkildə narahatlıq və narazılığına səbəb olan hallardır. Tədbirdə moped istifadəçilərinə kaskadan istifadə etmələri, ümumi nəzərdə tutulan qaydaları pozmamaları tələb edilib. Xüsusilə də kuryer xidmətini həyata keçirən şəxslərlə söhbət aparılıb.

Əhalidən də xahiş edirik ki, bu cür işlərlə məşğul olan şəxlərin fəaliyyət istiqamətlərini daha da çətinləşdirməsinlər. Aparılan sorğular zamanı mopeddən istifadə edən şəxslər bildirirlər ki, qayda pozmalarına əsas səbəb sifarişçilərin onları bir çox hallarda tələsdirmələri olur.

Nəzərə almaq lazımdır ki, bu hadisələrdən ən çox əziyyət çəkən, xəsarət alanlarda elə moped istifadəçiləridir. Belə tədbirlər indiyə qədər əsasan, Nərimanov, Nəsimi, Yasamal və Səbail rayonları ərazilərində keçirilib və mütəmadi olaraq da baş tutacaq”.

”Əlavə olaraq bildirmək istəyirik ki, bu sahədə qanunvericiliyə dəyişiklik, yəni mopedlər (mühərrik həcmləri 50 kubmetrə qədər olan) üçün dövlət qeydiyyatına alınması, eyni zamanada onların sürücülük hüquqlarının təmin olunması ilə bağlı müvafiq qanunvericiliyə Daxili İşlər Nazirliyi tərəfindən təkliflər verilib. Təkliflər hökümət tərərfindən müsbət qarşılanıb.

Yaxın zamanlarda bu növ nəqliyyat vasitələrinin idarə edən şəxslərin də hüquqlarının, eyni zamanda məsuliyyətlərinin artırılması istiqamətində də normativ hüquqi bazaya dəyişikliklər olunacaq beləliklədə kortəbii şəkildə təsadüfi adamlar bu növ nəqliyyat vasitələrini idara edərkən daha məsuliyyətli olmağa məcbur olacaq bu isə problemlərin bir qismini həll edəcək”, - o, vurğulayıb.

# Bakı Brüsselin vasitəçiliyinə daha çox etibar edir

## Prezidentin əmin danışması prosesin müsbətə doğru irəliləyəcəyini göstərir



Prezident İlham Əliyev ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə son günlər yenidən müzakirə predmetinə çevrilmiş ATƏT-in Minsk qrupundan danışıb. Dövlət başçısı vurğulayıb ki, ATƏT yeni reallıqları tam qəbul edib. Ölkə rəhbəri xatırladıb ki, Minsk qrupu İkinci Qarabağ müharibəsinə qədər 28 il fəaliyyətdə idi və həmsədr ölkələr bu illər ərzində Azərbaycana, Ermənistana bəlkə də yüzlərlə səfər ediblər. Ancaq nəticəsi göz qabağındadır, nəticə sıfırdır: ”Bunun səbəbləri də Azərbaycan ictimaiyyətinə məlumdur. Bu haqda çox danışmaq istəməzdim. Azərbaycan bu münaqişəni özü həll edib. Hərbi-siyasi yollarla həll edib”.

Prezident diqqətə çatdırıb ki, Minsk qrupuna münaqişənin həlli üçün verilmiş mandat de-yure qüvvədə olsa da, de-fakto etibarsız sayıla bilər. Ölkə başçısı bildirib ki, bir ildən çox müddətdə həmsədrlər bizə hər hansı təklif verməyiblər: ”İndiki şəraitdə həmsədrlər formatı faktiki olaraq qeyri-funksional vəziyyətdədir. Bunu artıq bu həmsədr ölkələrin yüksəkvəzifəli şəxsləri bildirirlər və belə olan halda, əlbəttə ki, hər hansı bir qrup şəklində fəaliyyətdən söhbət gedə bilməz”.

Bununla yanaşı, Azərbaycan rəhbəri əlavə edib ki, ATƏT mötəbər beynəlxalq təşkilat kimi öz rolunu oynaya bilər: ”İndi məsələ Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasıdır. İstənilən beynəlxalq təşkilat, bu sahədə öz töhfəsini verə bilən təşkilat, əlbəttə ki, qəbulediləndir”.

**Politoloq Turan Rzayev ”Şərq”ə bildirib ki, ölkə başçısının sözlərini Azərbaycanın ATƏT-in Minsk qrupu ilə bağlı yekun qərarı kimi qiymətləndirmək olar. Ekspertin sözlərinə görə, indiki mərhələdə iki ölkə arasındakı mövcud problemləri heç bir halda Minsk qrupu həll edə bilməz. Çünki qrupun belə bir səlahiyyəti, mandatı yoxdur:** ”Həmsədrlər münaqişəni sülh yolu ilə həll etməli idi. Qurum bunu edə bilmədiyi kimi, Ermənstanla Azərbaycan arasında baş verən müharibənin də qarşısını ala bilmədi. Rəsmi Bakı hazırda öz yoluna Brüssel formatı ilə davam edir. Birinci və ikinci Brüssel görüşlərində əldə edilən razılaşmalar, atılan konkret addımlar bu formatın daha konstruktiv və məhsuldar olduğunu göstərir. Təsadüfi deyil ki, Prezident İlham Əliyev müşavirədə Avropa İttifaqının vasitəçiliyini müsbət qiymətləndirdiyini də açıqca söylədi. Avropa İttifaqının postmünaqişə dövrünün reallıqlarını qəbul etdiyini deyən dövlət başçısı buna misal olaraq Brüsseldə qəbul edilən ortaq bəyanatlarda ”Dağlıq Qarabağ” ifadəsinin işlədilməməsini göstərdi. Bu, Azərbaycanın Ermənistanla həllini gözləyən məsələlərdə Brüsselin vasitəçiliyinə inamını artıra bilər. Ermənistanın Baş naziri Nikol Paşinyanın Brüsseldə Azərbaycanın sülh üçün təklif etdiyi 5 baza prinsipi qəbul etdiyi məlum idi. Görüş sonrası da bu haqda məlumatlar vardı. Prezidentin müşavirədə bu məsələni bir daha qeyd etməsi məlumatı tam təsdiqləmiş oldu”.

> “İndiki məqamda Ermənistan hakimiyyəti Azərbaycanın ərazi bütövlüyünü tanıdığını dilə gətirir”

Analitikə görə, prinsip etibarilə Ermənistanın bu şərtləri qəbul etməkdən başqa çarəsi də yox idi: ”Hər şeydən əvvəl bunu İrəvandan Brüssel də tələb edib. İndiki məqamda Ermənistan hakimiyyəti Azərbaycanın ərazi bütövlüyünü tanıdığını dilə gətirir. Lakin erməni rəsmiləri açıqlamalarında hələ də Qarabağın ”statusu”nun müəyyənləşməsi məsələsini gündəmdən düşürmürlər. İrəvan verdiyi vədə əməl etməlidir. Əks təqdirdə iki ölkə arasında yekun sülh mümkün olmayacaq ki, bunun da bütün məsuliyyəti Ermənistanın üzərində qalacaq. Lakin Prezidentin bu məsələdə əmin danışması prosesin müsbətə doğru gedəcəyini, ən azından rəsmi Bakının əlində İrəvana qarşı təzyiq rıçaqlarının olduğunu göstərir”.

**İsmayıl Qocayev**

# Erməni deputatlar Qarabağa buraxılmadı

## Rus sülhməramlılar Bakının tələbini yerinə yetirdi



Bununla Ermənistan müxalifətinin mövqeyi zəiflədildi və Paşinyanın sülh yolunun önü açıldı

İsmayıl Qocayev

**Ermənistan parlamentinin 17 deputatı "Qarabağın "müstəqilliyi" uğrunda mübarizəyə dəstək" adlı tədbir təşkil etmək üçün torpaqlarımıza üz tutublar.**

Ancaq Rusiya sülhməramlıları erməni deputatları Qarabağa buraxmayıb, onları Laçının girişində saxlayıblar. Erməni deputatlara Xocalı soyqırımını həyata keçirən Seyran Ohanyan başçılıq edirmiş. Qeyd edək ki, erməni deputatlar ötən ilin sentyabrında Xankəndinə səfər etmişdi. Bu, Azərbaycanın ciddi etirazına səbəb olmaqla yanaşı, sülhməramlıların yarıtmaz fəaliyyətini də növbəti dəfə gündəmə gətirmişdi. Heç şübhəsiz, erməni deputatların Qarabağa girişi Bakının tələbi ilə bağlanıb.

**Siyasi şərhçi Asif Nərimanlı "Şərq"ə bildirib ki, Seyran Ohanyan Ermənistan parlamentinin tribunasına separatçı-terrorçuların qondarma əski parçasını taxaraq, iclası tərk etmiş, dəstəsi ilə Qarabağa yola düşmüşdü.** Analitik qeyd edib ki, Paşinyanın partiyasını təmsil edən deputatlar isə Ohanyana etiraz edərək, əski parçasını tribunadan götürmüşdülər: "İrəvanda yaşanan bu qalmaqaldan sonra Ohanyanın rəhbərlik etdiyi deputat qrupunun Qarabağa buraxılmamasına görə "Ermənistan" bloku Paşinyanı Azərbaycanla "əməkdaşlıq"da ittiham edir. Brüssel görüşü və sonrasında müxalifətin Qarabağ kartından hakimiyyətə qarşı istifadə etməsi daha intensiv hal alıb. Ermənistanın müxtəlif yerlərində qondarma əski parçasını asmaq kampaniyası da bu prosesin tərkib hissəsidir. Azərbaycanla sülh sazişinə qarşı çıxan "Qarabağ klanı"nın qalıqları Paşinyan üçün ciddi "baş ağrısına" çevrilib. Bu təxribatçı qrupun Azərbaycan ərazisinə buraxılmaması onların Qarabağ kartından istifadə imkanlarını, xüsusilə Xankəndidəki separatçı "deputatlar"la birləşərək, təxribat fəaliyyətini məhdudlaşdırır. Eləcə də baş separatçı Araik Arutyunyanın Paşinyana qarşı "alternativ" düzəltmək təşəbbüsünü zərərsizləşdirir. Daşnakların səfərində məqsəd Qarabağın "müstəqillik" iddialarına dəstək tədbirinin təşkil edilməsi olub. Ermənistan XİN-nin deputatların qarşısının alınması ilə bağlı narahatlığını dilə gətirməsi rəsmi İrəvanın müxalifətin iddialarını təkzib etməsi deməkdir".

**Ekspert vurğulayıb ki, rəsmi Bakı Koçaryanın dəstəsinin Qarabağa girişinə qadağa qoymaqla birdən çox gediş edir:** "Bununla Ermənistanda Qarabağ kartından istifadə edilməsi imkanını azaldır. Digər yandan Ermənistan hakimiyyətinə qarşı müxalifətin rıçaqlarını zəiflədir. Bu, Brüsseldə ölkə başçısı İlham Əliyevlə razılaşan Paşinyanın önünü açır. Həm də erməni müxalifətinin hakimiyyətə qarşı ittihamlarını gücləndirir və bu gedişlə Bakı İrəvanın siyasi gündəminə təsir edir. Eyni zamanda Qarabağdakı separatçı-terrorçuların "müstəqillik" iddialarına dəstəyin çevrəsini daraldır. Burada əsas diqqət çəkən məqamlardan biri də sülhməramlıların Azərbaycanın istəyini yerinə yetirməsidir. Mümkündür ki, Qarabağdakı son proseslərdə Bakının prinsipial mövqe sərgiləməsindən sonra sülhməramlı kontingentin rəhbərliyi - Rusiya tərəfi əlavə qarşıdurmanın yaranmasını istəmir. Erməni deputatların geri qaytarılması bütün hallarda Qarabağda Bakının mövqeyini gücləndirən məqamdır".

### Kiyev indiki vəziyyətdə heç atəşkəsə də razı olmaz

**Rusiya Prezidenti Vladimir Putin Belarus həmkarı Aleksandr Lukaşenko ilə görüşdə Ukraynanı ittiham edib. Putin deyib ki, Moskva İstanbul görüşündə Kiyevlə müəyyən razılığa gəlmişdi.**



# Zelenski hakimiyyətinin taleyi həll olunur

## Ukrayna ərazi bütövlüyü məsələsində güzəştə getməyəcək

Razılıq ondan ibarət idi ki, Ukrayna üçün təhlükəsizlik təminatı Krım, Sevastopol və Donbass ərazisinə aid edilməyəcək: "Rusiya danışıqların davam etməsi üçün şərait yaratdı. Lakin Ukrayna tərəfi İstanbul razılaşmasından uzaqlaşdı. İndi təhlükəsizlik təminatı məsələsi ayrıca müzakirə olunur, Krım, Sevastopol və Donbass məsələsi bu danışıqlar çərçivəsindən kənara çıxarılır. Başqa sözlə, yenidən çıxılmaz vəziyyətə qayıtdıq". Bununla yanaşı, Putin vurğulayıb ki, tərəflərin danışığı və dialoq üçün ən əlverişli məkan Belarusdur.

**Rusiya rəhbərinin açıqlamasını "Şərq"ə şərh edən politoloq Azər Rəşidoğlu deyib ki, Moskva üçün heç bir anlaşmanın önəmi yoxdur. Analitikə görə, İstanbulda anlaşma əldə olunması Ankaranın gücünün etirafı demək olardı:** "Buna nə Moskva, nə də ki Minsk razı ola bilərdi. Həm də görünür, Belarus lideri Lukaşenko Kiyev və Moskvanın Türkiyədə anlaşmasını həzm edə bilmədiyini açıq nümayiş etdirib. Tərəflər arasında ilk danışıqlar prosesi Belarusda baş tutsa da, bu günə əldə olunan irəliləyişlər birmənalı şəkildə Türkiyənin vasitəçiliyinin nəticəsidir. Belarusun iştirakı ilə baş tutan danışıqlarda isə hər hansı bir nəticə əldə edilməmişdi. Bu mənada Belarus artıq arxa plana keçirilib. Rəsmi Minsk vasitəçi qismində ciddi qəbul edilmir. Bu isə Belarus prezidentini qəzəbləndirir. O ki qaldı Kiyev və Moskvanın anlaşmasına, inanmıram ki, Kiyev güzəştlərə hazır olsun".

**A.Rəşidoğlunun qənaətincə, Kiyev nəinki ərazisinin bölünməsinə, indiki vəziyyətdə heç atəşkəsə də razı olmaz:** "Atəşkəs Rusiyanın işğalı altında qalan ərazilərdə hərbi baxımdan güclənməsi və sonrakı mərhələdə növbəti bəhanələrlə həmin ərazilərdən plastdarm kimi istifadə etməsi deməkdir. Bu, nə hərbi taktiki, nə də strateji baxımdan Ukrayna üçün əlverişlidir. Kiyevin hansısa ərazisindən imtinasına razı olacağını düşünmürəm. Burada söhbət təkcə ərazi bütövlüyü məsələsindən getmir. Bu həm də hakimiyyətin taleyi məsələsidir. Zelenski hakimiyyəti ölkənin bölünməsinə, ərazilərinin nəzarətindən çıxmasına imza atırsa, öz məhvinə imza atmış olur. Təbii ki, sülhə nail olmaq üçün Ukraynanı dəstəkləyən ölkələrdən bir qismi, yaxud hamısı Ukraynanı buna məcbur etməyə çalışa bilərlər, amma Kiyev buna getməz".

**İsmayıl Qocayev**

# Zəngəzur dəhlizi bir şansdır

## "Ermənistanın gələcəyi artıq Rusiya ilə deyil, Azərbaycan və Türkiyə ilə bağlıdır"

**Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə aprelin 12-də bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirə keçirilib.**

Müşavirədə bir sıra mövzulara toxunan ölkə başçımız yekun nitqində Zəngəzur dəhlizinə diqqət çəkib: "Zəngəzur dəhlizi açılmalıdır. Zəngəzur üzərindən həm dəmir yolu, həm avtomobil yolu məsələsi ilə bağlı aprelin 6-da Brüsseldə geniş fikir mübadiləsi aparılıb. İran üzərindən yolun Naxçıvana çəkilməsi və oradan dünya bazarlarına çıxarılması layihəsi də artıq hazırlanır". Prezident diqqətə çatdırıb ki, Ermənistan bizim planlarımızı əngəlləyə bilməz: "Əgər Zəngəzur üzərindən bizə keçid verməsə, özü itirəcək və birinci növbədə 10 noyabr Bəyannaməsini pozmuş olacaq".




**Millət vəkili, AŞ PA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov bu barədə "Şərq"ə danışarkən qeyd edib ki, müşavirədə həm Azərbaycanın iqtisadi uğurları, həm də qələbəmizin beynəlxalq səviyyədə qəbul olunması fakta**ları bir-bir sadalanıb: "Burda ən vacib məqamlardan biri də cənab prezident tərəfindən Ermənistanın rəsmi Bakının təklif etdiyi sülh müqaviləsinə razılıq verməsi, masaya əyləşmə razılığı və bu istiqamətdə konkret addımların atılması ilə bağlı səsləndirdiyi fikirlər olub. Müşavirədə Azərbaycanı və dünya ictimaiyyətini maraqlandıran mövzular üst-üstə düşüb. Ermənistanı isə həm Azərbaycan, həm də dünya tərəfindən sülhə dəvət etmə, əks halda sülhə məcbur etmə məsələsi gündəmə gəlib".

*Parlament üzvü vurğulayıb ki, artıq bizim qələbəmiz dünya tərəfindən qəbul olunub və hazırda Azərbaycan bu qələbənin yeni reallığının tam şəkildə həyata keçirilməsi üçün lazım olan məsələləri həll edir*: "Azərbaycan onsuz da öz məqsədlərinə çatacaq. Cənab prezident də bunu vurğulayıb. Rəsmi İrəvan öz gələcəyini Rusiya və ya Qərblə əlaqələndirməyə çalışır. Ermənistanın gələcəyi artıq Rusiya ilə deyil, məhz Azərbaycan və Türkiyə ilə bağlıdır. Qərblə əlaqə qurmaq istəyən Ermənistanın yolu isə yalnız Azərbaycan və Türkiyədən keçir".

**S.Seyidovun sözlərinə görə, Ermənistan normal dövlət olmaq istəyirsə, bunun üçün hazırda Azərbaycanın təklif etdiyi layihələrə qoşulmalıdır. Həmin layihələrin də ən əhəmiyyətlilərindən biri Zəngəzur dəhlizidir:** "Bu dəhliz nə qədər tez açılsa, Ermənistan üçün bir o qədər yaxşı olacaq. Zəngəzur dəhlizi Ermənistan üçün yaradılmış şansdır. Ona bu şansdan düzgün istifadə etmək qalır".

**Günəş Mərd**

# Rusiya da, İran da mesajlarını aldı

## Ermənistanı silahlandıran ölkə Azərbaycanın dostu ola bilməz

**Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən müşavirə zamanı ölkə başçısı iqtisadi göstəricilərimiz, sosial-iqtisadi yekunlar, inflyasiya, ərzaq ehtiyatlarımız və s. məsələlərə toxunub. Analitik Aqşin Kərimov prezidentin müşavirədəki çıxışının hərbi-siyasi aspektlərini "Şərq"ə şərh edib:**



"İlham Əliyevin müşavirədəki çıxışı Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesinə dair praqmatik təkliflər üzərində qurulub və ATƏT kimi təşkilatların bu məsələdə üzərinə düşən vəzifələrin yerinə yetirilməsi barədə çağırışlardan ibarətdir. Prezidentin çıxışından bir daha aydın oldu ki, artıq ATƏT də, onun mandat verdiyi Minsk qrupu da Azərbaycanın Ermənistan üzərindəki qələbədən sonra yaratdığı reallığı qəbul edib. Azərbaycan-Ermənistan əlaqələrinin yaranması üçün ali səviyyədə verilən bəyanatlarda münaqişənin bitdiyi vurğulanır və "Dağlıq Qarabağ" ifadəsinə yer verilmir. ATƏT bundan sonra konstruktiv mövqe ilə Azərbaycan-Ermənistan münasibətinin normallaşmasına töhfə verə bilər. Ermənistanın Baş naziri Nikol Paşinyan Brüssel görüşündə Azərbaycanın təklif etdiyi 5 maddəlik baza prinsipini qəbul edib. İndi Ermənistanın təcriddən çıxması və inkişafı, Azərbaycan və Türkiyə ilə əlaqələri beynəlxalq hüquq norma və prinsiplər əsasında normallaşmalıdır. Bundan sonrakı proseslərin müsbət məcrada inkişafı həmin bu zəminlər üzərində inkişaf etməlidir, əks təqdirdə Azərbaycan yenidən başqa təzyiq formullarını işə salacaq".

**Siyasi şərhçi diqqətə çatdırıb ki, hazırda ATƏT-in Minsk qrupunun de-fakto olaraq etibarsızlığı və yararsız olması onun hüquqi əsasını da sual altına qoyur:** "Bu mənada ya həmsədrlər Azərbaycanın təklif etdiyi prinsipləri əllərində rəhbər tutaraq çəkici eyni nöqtəyə vurmalıdır, ya da özlərini bu format çərçivəsində prosesdən kənarda tutmalıdır. ATƏT-in Minsk qrupunun qərəzli yanaşmalarla fəaliyyətini Rusiyanın Xarici işlər naziri Sergey Lavrov da etiraf edib. Bu isə çürümüş həmsədrlik institutunun formatında dəyişikliyi aktual edir. Bunun üçün ya həmsədrlik institutu özünün buraxıldığını elan etməli, ya da həmsədrlik kreslosunda əyləşən dövlətləri daha etibarlı dövlətlər əvəz etməlidir. Nəzərə alaq ki, Minsk qrupunun 11 üzvü var, onun tərkibindəki Türkiyə və Almaniyanın həmsədrliyə gəlməsi daha praqmatik olardı. Yəqin ki, kulislərdə bu cür müzakirələr gedir. Reallaşması çətin məsələ olsa da, mümkünsüz deyil".

**A.Kərimovun sözlərinə görə, Azərbaycan Ermənistanın növbəti dəfə qeyri-konstruktiv fazaya keçəcəyi risklərini hesablayır və yeni dünya nizamı yaradılması istiqamətində aparılan amansız mübarizədə özünün müdafiə qabiliyyətini artırır:** "Bunu postmünaqişə reallığının çərçivəsinin də fövqünə çıxarır. Prezidentin müşavirədə Azərbaycanın hərbi potensialına da diqqət çəkməsi həmin mesajı özündə cəmləşdirir və perspektiv istiqamətləri göstərir. Bu perspektivdə Azərbaycanın başqa ölkələrlə hərbi-texniki əməkdaşlığı inkişaf etdirməsi xətti dayanır, bu isə ölkəyə ən müasir silah və texnikaların idxalının davam etdirilməsini qaçılmaz edir. Hərbi yöndəki digər istiqamət Azərbaycan ordusunun Türkiyə modelinə keçididir. Bunun tərkib hissələrindən biri də xüsusi təyinatlı qüvvələrinin daha da təkmilləşdirilməsi və komando hərbi birliklərinin sayının çoxalmasıdır. Azərbaycan ildən-ilə komando hərbi hissələrinin sayını artıracaq - İlham Əliyevin çıxışındakı bu məqamı Azərbaycanın müdafiə və təhlükəsizliyi üçün böyük işlər görüləcəyinin anonsu kimi qiymətləndirə bilərik. Artıq minlərlə komando tam hazırlıqlı döyüşçü kimi hazırlanıb və hazırlanacaq. Bununla paralel olaraq xüsusi təyinatlı qüvvələrin şəxsi heyətinin sayının artırılması hərbi məqsədlərdə dayanan hədəflərdəndir. Komando hərbi birlikləri mümkün düşmənin taktiki, xüsusi təyinatlı qüvvələr isə strateji dərinliyinə sızmaq əməliyyatlarını icra edirlər. Hər hansı döyüş şəraitində isə fəaliyyət koordinasiya edilir".

> "Ermənilər nəhayət anlayacaq ki, Azərbaycan vətəndaşlarıdır və onlar Azərbaycan bayrağı altında yaşamalıdırlar və yaşayacaqlar"

**Analitik düşünür ki, ölkə başçısı müşavirədə Ermənistanın silahlanma ehtimalı ilə bağlı danışarkən iki mesaj vermək istəyib:** "Əvvəla Azərbaycan Ermənistana yön alaraq silah daşıyan bütün silah trafiklərinə nəzarət edəcək (əvvəl də belə idi). Daha sonra Ermənistanı silahlandıran ölkə Azərbaycanın dostu ola bilməz. Ermənistan ordusunu silahla qidalandıran ölkələr isə münaqişə təcrübəsindən bizə bəllidir. Ona görə də İlham Əliyev bununla Rusiyaya, eləcə də İrana mesaj ötürür. Prezident çıxış zamanı, eyni zamanda, bu yaxınlarda Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində baş verən hadisələrə, Azərbaycanın Xankəndinə qazın verilişini bərpa etməsinə diqqət çəkib: "Biz indi qazı bərpa etmişik və ermənilər bunu qiymətləndirməlidirlər. Biz, sadəcə olaraq, xoş niyyət göstərmişik. İstəməsəydik, bərpa etməzdik. Kim bizə söz deyə bilər? Biz borclu idik onu bərpa etməyə? Yox! Bərpa etdik, ümid edirik, onlar da anlayacaq ki, Azərbaycan vətəndaşlarıdır və onlar Azərbaycan bayrağı altında yaşamalıdırlar və yaşayacaqlar". Bu sitat gələcəkdə Xankəndidə Azərbaycan bayrağı dalğalanacaq deməkdir!".

**Günəş Mərd**

# Makron böyük ehtimalla yenidən prezident seçiləcək

## Fransa lideri artıq Azərbaycanla da hesablaşmaq məcburiyyətində qalacaq



**"Fransada prezident kim olursa-olsun ermənilərə simpatiya bəsləyəcək". Bu sözləri "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib. Ekspert bildirib ki, Fransanın keçmiş prezidenti Nikola Sarkozi Makrondan fərqli olaraq Azərbaycana bir neçə dəfə səfər edib, ikili əlaqələrin əhəmiyyətindən danışıb:**

"Ancaq Sarkozi də ermənilərə simpatiyasını gizlətmir, "ermənilər bizim kiçik bacımızdır" ifadəsini səsləndirirdi. Prezident seçkisində ikinci tura keçən Emmanuel Makronun sağçı Li Pen üzərində qələbə çalmaq ehtimalı yüksəkdir. Ötən dəfə də belə olmuşdu. Çünki seçkidə üçüncü sırada qərarlaşan Melanşon tərəfdarlarını Li Penin əleyhinə səs verməyə çağırıb. Bu isə onu tərəfdarlarının əksər hissəsinin Makrona səs verəcəyi anlamına gəlir".

**Analitik qeyd edib ki, Makron erməni sevgisini İkinci Qarabağ müharibəsində kifayət qədər nümayiş etdirdi. O, prezidentliyi dövründə Azərbaycana səfər etmədi:** "Ancaq müharibədən aylar sonra müşavirləri Makrona anlatdılar ki, Cənubi Qafqazın əsas dövləti olan Azərbaycanla da hesablaşmaq lazımdır. Makron Azərbaycana yönəlik xarici siyasətini bir qədər korrektə etməyə məcbur qaldı. Fransanın bir qrup şirkətinin təmsilçisinin bu günlərdə Azərbaycana gəlişi, investisiya imkanlarını öyrənməsi, hətta Qarabağın azad olunmuş bölgələrində çalışma imkanları iki ölkə arasındakı münasibətlərdə buzları əridə bilər. Yetər ki, Makron ikinci dəfə prezident seçildikdən sonra əvvəlki yanlışını təkrarlamasın".

**İsmayıl**



# İstisu yenə şöhrətini qaytaracaq

## Hidayət Elvüsal: "Oranı tanıyan, mineral sulara bələd olan alimlər işə cəlb olunmalıdır"

Məlahət Rzayeva

**"...İstisuda sanatoriyanın həyətində baş həkim onları görən kimi gülümsünüb:**

**- Bilirəm, - dedi, - niyə gəlmisiniz. Vurğun şeirinin ilahi gücü sizi çəkib gətirib, şair aşağıdakı binada, on birinci otaqda qalır...**

**Səməd Vurğun eyvanda tək idi, kresloda oturmuşdu. Onları gülərüzlə qarşıladı. Hiss olunurdu ki, təklikdən darıxıb, qonaqlarına oturmağa yer göstərdi.**

Təklifini bir neçə dəfə təkrar elədi. Səfər də, Paşa da, qapının ağzında çəkinəcəkli dayanan çavan sürücü də ilahi vurğunluqla Vurğuna baxırdılar. Sürücünün qəribə, heyrətli baxışları sanki dilə gəlib deyirdi: Budumu şöhrəti düzdünyanı tutan Səməd Vurğun?!.

Şair həkimə yaxın yoldaşı kimi ərkyana müraciət edirdi:

- Dostların gətirdiyi dağ çiçəklərini dağların qoynunda qoymayın solmağa..."

Bu sətirlər araşdırmaçı-publisist, hərbi jurnalist Şəmistan Nəzirlinin "Yaddaşlarda yaşayan Vurğun" kitabındandır. Dahi şairimiz Səməd Vurğun 1955-ci ilin iyulunda Kəlbəcərin İstisu sanatoriyasında müalicə alıb. Görünür, kimsə şairə oranı məsləhət görübmüş. Kitabda həmçinin S.Vurğunun Dədə Şəmşirlə görüşü barədə də xatirəyə də yer verilib. Oxucumuz Səməd Vurğunun Kəlbəcərə - İstisuya səfərini niyə xatırlatdığımızı təxmin etdi, yəqin. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin müzəffər Ali Baş Komandanı İlham Əliyev 2022-ci ilin birinci rübünün yekunlarına həsr olunmuş müşavirədəki nitqində Kəlbəcər, İstisu, orada görüləcək işlər barədə də danışdı: "İstisu sanatoriyası sovet vaxtında çox məşhur idi. Həm Azərbaycan sakinləri, həm sovet ittifaqının müxtəlif yerlərindən ora gələnlər çox idi. Amma biz Mehriban xanımla İstisuda olanda dəhşətli mənzərəni gördük. Sanatoriya, su mənbələri tamamilə dağıdılıb. Mən demişəm bu vəhşi qəbilə hər yerə burnunu soxub, o cümlədən oraya. Keçmiş sanatoriyadan ancaq bəzi qalıqlar qalıb. Ona görə mən qərara gəldim ki, orada yeni, müasir otel inşa edilsin. İndi təqribən 150-160 yerlik otelin layihəsi hazırlanır. Biz müalicəvi içməli suyun istehsalına da başlamalıyıq. Bu göstəriş də verildi. İndi ilkin təmaslar olub və hesab edirəm ki, bu il hər iki vacib və böyük rəmzi məna daşıyan layihələrin təməli qoyula bilər". Prezident qeyd etdi ki, İstisuda yenə də beynəlxalq səviyyəli kurort yaranacaq: "Çünki Laçın aeroportu istifadəyə veriləndən və Toğana-Kəlbəcər avtomobil yolu, tunel çəkiləndən sonra həm Gəncə istiqamətindən, həm Laçın istiqamətindən Kəlbəcərə gəlmək çox rahat olacaq. Əminəm, çox vaxt keçməyəcək ki, İstisu yenə də öz şöhrətini qaytaracaq".

Cənab Prezidentin hər sözünün arxasında durduğuna şübhə yoxdur. Prezident bunu daim əməliylə təsdiq edir. Müzəffər ordumuzun, igid əsgərlərimizin şücaəti sayəsində erməni işğalından azad edilmiş Qarabağda həyatın hər gün necə dirçəldiyi göz önündədir. Kəlbəcər də, onun şəfalı bulaqları, suyu da qısa zamanda yenidən xalqın istifadəsinə veriləcək. Cənab Prezident tapşırıqlarını verib artıq. **İstisunun bundan sonrakı ömrünün necə olacağını "Şərq"ə əslən Kəlbəcərdən olan peşəkar jurnalist, yazıçı, Azərbaycan oxucusunun həm də "Səhər" qəzetindən tanıdığı Hidayət Elvüsal anlatdı:**

- İstisu sanatoriyası sovet illərində ümumittifaq statusu almışdı. Cənab Prezidentin xatırlatdığı kimi ora sovet ittifaqının hər yerindən gəlidilər, xarici ölkələrdən də həmçinin. İstisunun şöhrəti hər yerə yayılmışdı. Çünki həqiqətən də İstisu fövqəladə gücə - müalicə gücünə malikdir. Övladı olmayanlar İstisuda vanna qəbul edirdi, bu möcüzəvi sudan içirdi, övlad sahibi olurdu. İstisuyun bir neçə növü var. Eləsi var ki, dərideki qüsurları aradan qaldırır. Eləsi də var, daxilə qəbul edilir və daxili orqanları müalicə edir. Yəni həm zahirə, həm də batinə təsir gücü var. Mərhum şairimiz Məmməd Aslan İstisuya gələrdi, ayaqlarını salardı suya, ayağında nə ki qabar var, hamısı tökülüb gedərdi. Deməli, bu suyun möcüzəsi budur ki, üstdə olan ölü hüceyrələri tökür, diri, yaşayan hüceyrələrsə yerində qalır. Diri hüceyrələri məhv olmur. İstisuyun qəribəliyi həm də bu idi ki, 5 dəqiqə soyuq su gəlirdi, ardınca isti su. İsti su ilə soyuq su belə növbələşirdi. Amma bir vaxt akademik Mirəli Qaşqay ora gəlib, bəlkə də nəsə ixtira etmək, suyun tərkibini, mənbəyini müəyyən etmək üçün bir buruq inşa etdirdi orda. O buruq inşa ediləndən su yoxa çıxdı, itib getdi. İsti su ilə soyuq suyun növbələşməsi də pozuldu. Bilirsiz, təbiətə heç vaxt əmr etmək olmaz. Gərək təbiətin təbiətini pozmayasan. Təbii olan, təbii olaraq da qalsın, saxlansın.



"İstərdim ki, İstisuya qarşı da ölçülü davranılsın, sadə insanlar ora gedib müalicə ala bilsin. İstisu hamı üçün əlçatan olsun"

**H.Elvüsal İstisuyun öz əvvəlki şöhrətini qaytaracağına inandığını dedi:**

- Amma hesab edirəm ki, İstisu sanatoriyasıyla bağlı işlərdə mütləq mütəxəssislər iştirak etməlidir. Oranı tanıyan, mineral sulara bələd olan alimlər işə cəlb olunmalıdır. Bəzən düşünürəm ki, insanlar nahaq yerə yerin altındakı faydalı qazıntıları çıxarırlar. Məsələn, daş kömürü mən Yerin qara ciyəri hesab edirəm. Bəlkə də daş kömürü çıxarmaqla insanlar Yerin qara ciyərini sökürlər, dağıdırlar. Məlum məsələdir, hər bir nemət insan üçündür. Amma gərək qaydasında, bir ölçü daxilində olsun. İstərdim ki, İstisuya qarşı da ölçülü davranılsın, sadə insanlar ora gedib müalicə ala bilsin. İstisu hamı üçün əlçatan olsun.

Allah-təala bu nemətı bizə bəxş edibsə, ondan insanların faydalanmasına şərait yaradılmalıdır.

# "Azərbaycan bir çox ölkəyə ciddi dəstək verib"

## Asim Mollazadə: "Azərbaycan çətin dönəmdə postmüharibə və pandemiya dövründə böyük sosial layihələri həyata keçirdi"



**Aprelin 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirə keçirilib.**

Ölkə başçısı bir çox məsələlərə toxunub. Prezident qeyd edib ki, postmünaqişə dövrünün nəticələri, birinci ilin nəticələri deməyə əsas verir ki, qarşımızda duran bütün vəzifələr icra edilib: "Biz, ilk növbədə, beynəlxalq təşkilatlarla öz təmaslarımızı, fəal əməkdaşlığımızı davam etdirmişik və dünyanın aparıcı beynəlxalq təşkilatları yeni reallıqları qəbul ediblər".

**Ölkə başçısının çıxışını yüksək qiymətləndirən Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri, millət vəkili Asim Mollazadə görülən işlərin müsbət nəticə verdiyini bildirib:**

"Mənə elə gəlir ki, Azərbaycan çox çətin dönəmdə postmüharibə və pandemiya dövründə çox böyük sosial layihələri həyata keçirdi. İlk növbədə müharibə əlillərini, şəhid ailələrini sosial cəhətdən dəstəklədi.

Bununla yanaşı, əhali üçün pandemiya dövründə vəziyyəti stabilləşdirməklə əlaqədar ciddi proqramlar həyata keçirilib. Bu istiqamətdə aparılan işlər ölkəmizi çətin problemləri dəf etməyə imkan yaradıb".

**Millət vəkili Azərbaycanın daim başqa ölkələrə yardım etdiyini xüsusi vurğulayıb:** "Həmçinin dünyada bu istiqamətdə bir çox ölkələrdə zəruri işlər görülməyib, zəif ölkələrə dəstək verilməyib. Azərbaycan BMT-nin tribunasından istifadə edərək COVİD-lə bağlı mübarizədə səylərini reallaşdırıb. Bir çox ölkəyə ciddi dəstək verib. Lakin daha zəngin və böyük dövlətlər bunu etməyiblər.

Bu, təəssüf doğurur. Azərbaycan həmişə humanist prinsiplərdən irəli gələn siyasət yürüdür. Dünyanın bir çox yerində köməyə ehtiyacı olanlara dəstəyimizi göstərmişik".

Cəmilə Əzim

# Azərbaycanda karantin cərimələri ləğv olunmayacaq

## Halbuki, indiki qiymət artımı, gəlirlərin azalması fonunda bunu müsbət addım kimi qiymətləndirmək olardı



**Karantin dövründə açıq havada maska taxmayan vətəndaşlara yazılmış cərimələrin silinməsi ehtimalı yenidən gündəmdədir. Bəzi vətəndaşlar cərimə məbləğlərinin çoxluğundan şikayətlənir. Eyni zamanda pandemiya ilə əlaqədar sosial durumlarının yaxşı olmaması səbəbindən cərimələri ödəyə bilmədiklərini söyləyirlər.**

Milli Məclisin deputatı Razi Nurullayev parlamentin sonuncu iclasında pandemiya dövründə vətəndaşlara tətbiq olunan cərimələrin ləğv edilməsi təklifi ilə çıxış edib:

"Bizdən kasıb olan ölkələr, qonşu Gürcüstan da belə bir addım atıb. Onun üçün də parlamentin müvafiq komitəsinin bu məsələni müzakirə etməsini və plenar iclasa çıxarmasını xahiş edirəm".

**Təkliflə bağlı "Şərq"ə danışan iqtisadçı Toğrul Maşallının sözlərinə görə, cərimələrin ləğvi adekvat addım olardı:**

"Baxmayaraq ki, indi qaydalar mövcuddur, pandemiyadan çıxdıqca, cərimələrin mənası yoxdur.

Cərimələrin ləğvini əhali üçün indiki qiymət artımı, gəlirlərin azalması fonunda müsbət addım kimi dəyərləndirmək mümkündür.

Bizim dövlət büdcəmiz vergilərdən və s. formalaşır.

Cərimələrə çox diqqət yetirilir. Bu cərimələrin koronavirusla mübarizəyə xərclənəcəyi söylənilib. Bizdə belə qərarın verilməsi nadir hallarda baş verir. Cərimələrin silinəcəyini düşünmürəm".

Aygün Tahir

# "Elman Rüstəmov ikinci devalvasiyadan sonra getməli idi"

## Asif İbrahimov: "Nailiyyətlərimiz yaxın 2 il ərzində gözəçarpan olacaq"



**Ölkənin baş bankiri dəyişdi. Prezident İlham Əliyev Taleh Tahir oğlu Kazımovun Azərbaycan Respublikası Mərkəzi Bankının sədri təyin edilməsi haqqında sərəncam imzalayıb.**

Qeyd edək ki, Mərkəzi Bankın sabiq sədri Elman Rüstəmov aprelin 12-i vəzifədən azad edilib. Cənab Rüstəmovun vəzifədən getməsindən sonra bank sahəsində atılacaq addımlar müzakirə predmetinə çevrilib. Çünki Azərbaycanda illik inflyasiyanın 9 faiz olacağı, kənd təsərrüfatı, ərzaq məhsullarının bahalaşacağı proqnozlaşdırılır. Belə ağır vəzyyətdə hansı tədbirlər görülə bilər?

**Mərkəzi bank sistemində önəmli kadr dəyişikliyi barədə "Şərq"ə açıqlama verən iqtisadçı-ekspert Asif İbrahimov Azərbaycanın özünəməxsus milli iqtisadi modelinin mövcud olduğunu bildirib:**

"İqtisadiyyatımızı 3 perioda bölmək olar: 1994-cü ilə qədər olan, 1994-2012 və 2012-2015 periodlar. 1994-cü il dedikdə "Əsrin müqaviləsi"ni nəzərdə tuturam. 2012-ci ilə qədər dedikdə tikinti, tullantı və neft vəsaitlərinin axınını qeyd edirəm. 2015-ci ildə isə devalvasiya vardı. Milli manatımız xarici valyutalar qarşısında öz dəyərini itirməyə başladı. 2015-ci ilə qədər Azərbaycan bank sistemi fərqli işləyib. Bir növ kassa sistemi idi. Məsələn, hamısının bankları vardı. Həmin ildən sonra artıq beynəlxalq praktika və standartların tətbiqi həyata keçirilməyə başladı. Nisbətən təkmilləşdirmə işləri aparıldı. Buna baxmayaraq postsovet ölkələri ilə, məsələn, Qazaxıstanla müqayisə etdikdə görərik ki, onlar bizdən qat-qat irəlidədi".

**A.İbrahimov hesab edir ki, bank sahəsində ciddi islahatlar aparılmalıdır:**

"Oradakı problemlərimiz hansısa şəxsin problemi deyil. Ümumi sistemə məxsus məqam idi. Təkmilləşdirmə zərurəti olan bir çox məsələlər mövcud olub. Hazırda da var. 2015-dən 2022-ci ilə qədərki prosesi fikirləşdikdə, təbii ki, bir çox sahələrdə inkişaf var. Mərkəzi Bankın bir çox qaydalarında, təlimatlarında banklara qoyduğu yanaşmada proqressivlik özünü büruzə verir".

**Ekspert Mərkəzi Bankın sabiq sədri Elman Rüstəmovun fəaliyyətindən də bəhs edib:**

"İnflyasiya, devalvasiya və s. kimi proseslər Elman Rüstəmov və ya başqasının vəzifədə olmasından asılı deyil. Hazırda iqtisadiyyatımızın əsasını neft gəlirləri təşkil edir. Bu, situasiyadan asılıdır. Məncə, Elman Rüstəmovla bağlı verilən qərar gecikdirilib. İkinci devalvasiyadan sonra artıq bu qərar verilməliydi. Mərkəzi Bankın rəhbərliyinə yeni perspektivli kadrların təyinatını müsbət addım kimi qiymətləndirirəm. Bunun bank sahəsi üzrə dünya praktikasında beynəlxalq standartların tətbiqini ön plana çıxardacağını fikirləşirəm. Bu cəhətdən nailiyyətlərimiz yaxın 2 il ərzində gözəçarpan olacaq".

Cəmilə Əzim





**"Bu gün siz "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri təyin edilirsiniz. Sizə böyük etimad göstərilir. Əminəm ki, siz bu etimadı doğruldacaqsınız, üzərinizə düşən məsuliyyəti dərk edirsiniz və göstərilən etimadı öz işinizlə doğruldacaqsınız".**

# İçərişəhər mansarlar şəhərinə çevrilməkdədi

## Tapşırıqların əsl mahiyyətini çox da yaxşı anlamayanlar var

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu sözləri Şahin Seyidzadəni "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri təyin edərkən söylədi. Prezident İçərişəhərin milli sərvətimiz, dünya memarlıq tarixinin möhtəşəm abidəsi, Azərbaycan xalqının istedadının bariz nümunəsi olduğunu bir daha vurğuladı: "Əsrlər boyu Azərbaycan xalqı İçərişəhəri, onun içində olan tarixi abidələri qoruyub və bundan sonra da əsrlər boyu qoruyacaq. İçərişəhərin hər bir küçəsi, hər bir tini, hər bir daşı qiymətlidir, tarixi əhəmiyyət kəsb edir. ...Dünyada İçərişəhərə bənzəri olan ikinci yer yoxdur. Düzdür, dünyanın bir neçə ölkəsində köhnə şəhər məhəllələri var, onların bir neçəsində mən olmuşam. Amma tam əminliklə deyə bilərəm ki, İçərişəhər kimi ikinci məkan, ikinci yer dünyada yoxdur. Bu, bizim tarixi irsimizdir, biz İçərişəhəri göz bəbəyimiz kimi qorumalıyıq və əminəm ki, siz bu məsuliyyəti dərk edirsiniz". Prezident qanunsuz tikililər probleminə də toxundu və bütün dövlət qurumlarına və sahibkarlara xəbərdar etdi ki, belə hallara yol verilməsin: "Xüsusilə sahibkarlara müraciət edirəm, qazanc dalınca getmək o demək deyil ki, biz unikal şəhərimizi eybəcər binalarla korlayaq. Biz buna imkan verməyəcəyik, qanunsuz tikililərə son qoyulmalıdır. Bu məsələyə nəzarət edən bütün orqanlar bu işlərə çox ciddi yanaşmalıdır".

Amma görünür, hələ də vəzifə səlahiyyətlərindən sui-istifadə edən, Prezidentin tapşırıqlarının əsl mahiyyətini çox da yaxşı anlamayanlar var. Həm də İçərişəhərdə. İçərişəhər mansarlar şəhərinə çevrilməkdədi. Və Qoruq İdarəsinin gözü önündə. Qoruq İdarəsi İçərişəhərin içindədir. İdarənin yeni rəhbəri, digər məsul şəxslər İçərişəhərdə göydələnlərə oxşar binaların meydana gəldiyini görürlər, yəqin. Abadlaşma adı altında yenidən tikilən evlərə indi mansarlar da əlavə olunur. Hamı getdikcə hündürə "qalxır". Hara qədər? İçərişəhərdəki bütün fərdi evlərə mansar əlavə olunsa, şəhərin hansı görkəm alacağını təsəvvür etmək çətin deyil. Qoruq idarəsi bunu necə təsəvvür edir, hələ ki, məlum deyil. İçərişəhərdə olarkən diqqətimizi məhz bu mansarlar çəkdi. "Yolumuzun üstünə çıxanlar"ın bir neçəsinin fotosunu çəkdik. Bu eybəcərlər Qəsr küçəsi, 27, 7-ci M.Maqomayev döngəsi, 4-cü M.Maqomayev döngəsi, M.Maqomayev küçəsi 101. ünvanlardadır. Qoruq İdarəsinin diqqətinə təqdim edirik. Gedib baxsınlar. Prezidentin tapşırığına belə əməl edirsiniz?

Aydın Baxış

# Tərəflər yekun sülh sazişinə yaxınlaşır

## Artıq Paşinyan Azərbaycanın ərazi bütövlüyünü tanıyır



**Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov Ermənistanla münasibətlərdə növbəti günlərdə hansı yeniliklərin gözlənildiyinə aydınlıq gətirib. Nazir deyib ki, Azərbaycan tərəfi müsbət addımları alqışlayır və bu istiqamətdə işlər davam etməlidir. XİN başçısı prosesin nəticələrinin olacağını istisna etməyib: "Azərbaycan tərəfi öz xoş niyyətini ortaya qoyub və bunu tək sözdə yox, əməldə də nümayiş etdirir. Qarşı tərəfin də müsbət addımlarını gördüyümüz zaman bu baş verəcək".**

C.Bayramov Ermənistanın Xarici işlər naziri Ararat Mirzoyanla telefon danışığının peşəkar və konstruktiv məcrada keçdiyini bəyan edib. Vurğulayıb ki, erməni həmkarı ilə telefon danışığı zamanı Aİ, Azərbaycan və Ermənistan liderlərinin razılaşmasının davamı olaraq praktiki addımlar müzakirə olunub. Nazir xatırladıb ki, qarşıda sülh müqaviləsi üzrə, eyni zamanda, sərhədlərin delimitasiya prosesi və humanitar məsələlərlə bağlı çağırışlar durur: "Həm sərhədlə, həm də sülh müqaviləsinin hazırlanması ilə bağlı işçi qrupların formalaşdırılması barədə danışarkən onun formatı, səviyyəsi və uyğunluğu baxımından prinsiplər gözlənilməlidir. Azərbaycan tərəfi müsbət addımlar atır və qarşı tərəfdən də bunu gözləyir".

Ermənistanın Baş naziri Nikol Paşinyan parlamentdə çıxışı zamanı rəsmi Bakı ilə aparılan müzakirələrdən bəhs edib. Paşinyan bildirib ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Baş nazir vurğulayıb ki, sülh müqaviləsi prosesini təxirə salmaq olmaz: "Azərbaycanla

### Tərəflər arasında birbaşa görüşlər intensiv hal aldıqca müəyyən nəticələr gözləmək mümkündür

sülh sazişinin tezliklə bağlanması Ermənistanın gündəmindədir. Aprelin 30-dək Bakı ilə İrəvan arasında Birgə Sərhəd Komissiyasının üzvləri təyin edilməlidir. Təbii ki, bu, bir neçə ayın məsələsi deyil. Amma hər ölkələr sərhədlərin delimitasiya və demarkasiyası prosesinin mümkün qədər tez olmasında maraqlıdırlar". Paşinyan əlavə edib ki, Ukraynada eskalasiyadan sonra həmsədrlər arasında münasibətlər gərginləşib. Onun sözlərinə görə, İrəvan ATƏT-in Minsk qrupunun fəaliyyətini passiv şəkildə gözləyə bilməz: "Bu formatda dialoq həmsədrlərin proseslərə daxil olmasına mane olmur. Biz bu yanaşmanı müdafiə edəcəyik". Ermənistanın baş naziri bəyan edib ki, sülh müqaviləsi prosesini təxirə salmaq yox, xarici işlər nazirlərinin bütün tapşırıqları vaxtında yerinə yetirə biləcəklərinə ümid etmək lazımdır: "Bütün beynəlxalq ictimaiyyət prosesi asanlaşdırır və bu şəraitdən istifadə edilməlidir".

**Tərəflərin açıqlamalarını "Şərq"ə dəyərləndirən Türkiyədə yaşayan azərbaycanlı alim, Ankara Universitetinin professoru Toğrul İsmayıl deyib ki, İrəvan yekun sülhü imzalamağın önəmini dərk etməyə başlayıb. Professorun sözlərinə görə, tərəflər arasında 5 baza prinsipinin qəbul edilməsi, XİN başçılarının ilk dəfə birbaşa əlaqə yaratması, müəyyən pozitiv bəyanatlar Azərbaycan-Ermənistan münasibətlərinin yeni müstəviyə keçdiyini göstərir:** "Hesab edirəm ki, rəsmi Bakı ilə yanaşı, İrəvan hökuməti də bir sıra ciddi addımlar atmaqda maraqlıdır. Ən azından bundan sonra birbaşa təmasların daha intensiv hal alacağı şübhəsizdir. Əslində proseslərin intensivləşməsinin Ukrayna-Rusiya müharibəsi ilə bağlılığı da var. Rusiya tərəfi Qərb ölkələrinin Moskva ilə heç bir məsələdə müştərək fəaliyyət göstərməyəcəyini açıqladı. Bu, Minsk qrupunun əhəmiyyətini itirməsi və ortadan çəkilməsi deməkdir. O baxımdan Ermənistan baş nazirinin açıqlamaları önəmlidir. Paşinyan açıqaşkar etiraf edir ki, Qərb İrəvandan prosesin ərazi bütövlüyü çərçivəsində həllini istəyir. Azərbaycan da öz növbəsində Qarabağda yaşayacaq erməni əsilli vətəndaşlarına hər cür təminatı verəcəyini dəfələrlə bəyan edib. Görünən odur ki, Ermənistan baş naziri ərazi bütövlüyü və sərhədlərin müəyyən olunması məsələsində maraqlıdır. Düzdür, Paşinyana qarşı daxildə müxalifət var. Rusiyanın himayə etdiyi müxalif güclər hökumətin addımlarına mane olmağa çalışırlar. Lakin sülh müzakirələri ilə bağlı proses artıq başlayıb. Tərəflər arasında birbaşa görüşlər intensiv hal aldıqca müəyyən nəticələr gözləmək mümkündür".

**İsmayıl Qocayev**



# Paşinyan hakimiyyəti əvvəlki kimi israrlı görünmür

## Prosesin irəliyə getməsində Avropa İttifaqının İrəvana təsir rıçaqlarını işə salması da rol oynayıb

**"Son günlər Azərbaycan-Ermənistan arasında təmasların baş tutmasında, müsbət açıqlamaların verilməsində Avropa İttifaqının təşəbbüsü ilə keçirilmiş Brüssel görüşünün xüsusi əhəmiyyəti var".**

Bu sözləri "Şərq"ə açıqlamasında politoloq Turab Rzayev deyib. Analitik bildirib ki, Rusiyanın vasitəçiliyi ilə çoxsaylı görüşlər baş tutsa da, heç bir nəticə əldə olunmayıb: "Birinci Brüssel görüşündə Zəngəzur dəhlizinin ilk ayağı olan - dəmiryol xəttinin çəkilişi ilə bağlı razılıq əldə olundu. İkinci görüşdə isə sərhədlərin delimitasiya və demarkasiyası, sülh komissiyasının yaradılması istiqamətində anlaşma oldu. Sonrakı açıqlamalardan bəlli oldu ki, Ermənistan Baş naziri Nikol Paşinyan Azərbaycanın təklif etdiyi 5 baza prinsiplərinə etirazını bildirməyib. Bu da onu göstərir ki, Ermənistan dolayı yolla da olsa Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Sərhədlərin demarkasiya və delimitasiyası reallaşarsa, bundan sonra İrəvan Azərbaycan ərazilərinə iddia edə bilməyəcək".

**T.Rzayevə görə, prosesin irəliyə getməsində Avropa İttifaqının İrəvana təsir rıçaqlarını işə salması da rol oynayıb:** "Aİ Ermənistana bu il 2.6 milyard dollar yardım ayırıb. İndiki halda Ermənistanın buna ehtiyacı böyük idi. Görünür, Avropa İttifaqı bölgədə sülhün bərqərar olmasında, Ermənistanın konstruktiv mövqe sərgiləməsində maraqlıdır. Rusiyada bəzi dairələr, o cümlədən "Qarabağ klanı" bunun əleyhinə çıxır. Amma Paşinyan hakimiyyəti yekun sülhün imzalanmasında və sərhədlərin müəyyənləşməsində maraqlıdır".

**İsmayıl Qocayev**

# İrəvan sağlam düşünsə bölgəyə tezliklə sülh gələcək

## Ermənistan anlayır ki, indiki halda Azərbaycan-Türkiyə birliyinin qarşısında duruş gətirə bilməz

**Sovet İttifaqının süqutundan sonra Türkiyə ilə Ermənistan arasında diplomatik münasibətlər olmayıb. 1993-cü ildən sonra isə Türkiyə, Vətən müharibəsində Azərbaycanla həmrəylik əlaməti kimi, Ermənistanla sərhədini bağlayıb.**

2021-ci ildə ölkələr arasında əlaqələrin normallaşdırılması üzrə danışıqlar aparmaq üçün xüsusi nümayəndələr seçilib. Onların Moskvada ilk danışıqları keçirilib. Beləliklə, iki ölkə arasında çarter reysi ilə uçuşlar bərpa olunub. Görünən odur ki, artıq Ermənistan yeni



üfüqlər axtarır.

Elə dünən Ermənistan Baş naziri Nikol Paşinyan parlamentdə çıxışı zamanı "Ermənistan və Türkiyə arasında münasibətlərdə normallaşma prosesi gecikməməlidir" - deyə N.Paşinyan vurğulayıb.

Paşinyan həmçinin beynəlxalq ictimaiyyətin məsələnin həllini dəstəklədiyini söyləyib.

**Türkiyəli professor, beynəlxalq məsələlər üzrə ekspert Yaşar Onay "Şərq"ə açıqlamasında deyib ki, Ankara-İrəvan münasibətlərinin yaxşılaşması, Azərbaycanla Ermənistan arasında əlaqələrin düzəlməsindən asılıdır:** "Rəsmi İrəvan bu istiqamətdə sağlam addımlar atsa, bölgəyə barış gələcək. Ermənistanın son məğlubiyyətdən götürdüyü dərslər var. Azərbaycan Ordusu indi çox güclüdür. Önündə əvvəlki Azərbaycan yoxdur. Ermənistan Türkiyə ilə Azərbaycanın birliyinə qarşı nə hərbi, nə də iqtisadi cəhətdən tab gətirə bilər.

Ancaq bu hadisələrə görə, Rusiya və İranın narahatlığı aydın görünür. Regional sülhün təmini rəsmi İrəvanın maraqlarına uyğundur".

**Aygün Tahir**

# "Media haqqında" qanunun tətbiqi müzakirə edilib




**Azərbaycan Respublikası Audiovizual Şurasının inzibati binasında Azərbaycanda fəaliyyət göstərən yayım operatorlarının (kabel və İPTV) bir qisminin rəhbər və səlahiyyətli şəxsləri ilə görüş keçirilib.**

Görüşdə "Media haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi və ondan irəli gələn məsələlər, yayım operatorlarının yeni hüquqi rejimdə fəaliyyətinin xüsusiyyətləri, mövcud lisenziyaların yeni lisenziyalarla əvəz olunması, xarici kanalların retranslyasiyası zamanı müəllif hüquqlarının qorunması və pirat kontentlə mübarizə kimi məsələlər, ümumən, audiovizual mediada olan yeniliklər, audiovizual yayımın tənzimlənməsində tənzimləmə, özünütənzimləmə və birgə tənzimləmə metodlarından istifadə ətrafında geniş müzakirələr aparılıb.

*Qeyd olunan yeniliklərlə bağlı operatorlarla daimi kommunikasiyanın saxlanılması, canlı və ya onlayn platformada mütəmadi görüşlərin keçirilməsi planlaşdırılır.*

# "Biz dünyanı savaş ədəbiyyatı ilə heyrətləndirə bilmərik"

## Azər Turan: "Qarabağdakı zəfərimizi dünya ədəbiyyatı faktına çevirə biləcək romanın, bədii mətnin sorağında olmağımız, əslində, absurddur"

**"Real TV"nin rəhbəri, tanınmış jurnalist Mirşahin Ağayev "Mir Şahinin vaxtı" layihəsində çıxış edərkən qələm sahiblərini sərt tənqid edib. Həmkarımız qələm sahiblərinin Vətən müharibəsindəki qələbəmizlə bağlı əsərlər yaratmamalarından şikayətlənib: "Nə olub sizə? Hanı gölməçə boyda olub, özünü dəniz sayan şairlər, yazıçılar, bəstəkarlar? Tutaq ki, əvvəllər bəhanəniz var idi. Qələbə ilə bitməyən davadan yazmaq çətin idi. Gərək üstündən xeyli keçsin, mövzu oturuşsun və s. İndiki qələbəmiz var. Özü də necə bir qələbəmiz.**

Dünyaya nümunə olan. Hamı bu qələbəni öyrənir, tətbiq edir. Bəs hanı bizim "den pobedimiz"?! Hanı operamız, nəğmələrimiz, hanı hekayələrimiz?! Hara qeyb olmusuz? Kompleksdən çıxın, hörmətli qələm sahibləri. Yazın, qələbəmizi vəsf edin! Yazın... İnsanlar şəhid olub, əlini-qolunu, gözünü itiriblər. Azərbaycanın qalibiyyətinə layiq olmağa çalışın". Noyabrda Qələbəmizin iki ili olacaq, amma iki əsərimiz belə yoxdur. Onu da Prezident yazmalıdır? Azərbaycanın qələbəsi heç də Lev Tolstoya "Hərb və sülh" yazdıran qələbədən əskik deyil. Əksinə, artıqdır. Bəlkə əskik olan sizsiz?! Əgər belə deyilsə, sübut edin".

**Məsələnin aktuallığını nəzərə alıb "Ədəbiyyat qəzeti"nin baş redaktoru Azər Turanla söhbətləşdik.**

**- 44 günlük Vətən savaşına dair ədəbiyyat nümunələri yaranırmı? Mövcuddursa, hansılardır?**

- Qarabağ problemi dünyanın bənzər problemlərindən daha fərqli bir problemdir. Haqqında tutaq ki, roman yazmaq üçün bədii təfəkkür buna hazır olmalıdır. Qarabağ zəfərimizlə bağlı roman yazmaq üçün yazıçı yüz illik prosesləri istər tarixi, istərsə də politoloji aspektdə dəyərləndirməyi bacarmalıdır. Bunun üçün təkcə bədii ədəbiyyat deyil, tarixşünaslıq da paralel şəkildə tarixi materialları ortaya qoymalıdır. Yoxsa elə yalnız "Qarabağnamə"ləri oxumaqla, bir də indiki prosesləri bilməklə dünya miqyasında istənilən romanı yazmaq mümkün olmayacaq. Tolstoy "Hərb və sülh" romanını hadisələrdən ən azı əlli il sonra yazmadımı? Zəfərimizlə bağlı yazılacaq dünya miqyaslı roman anlayışına da bu rakursdan yanaşmaq lazımdır. Amma, təbii ki, istisnalar da olur və olmalıdır. Məsələn, dünyanın müharibə mövzusunda yazılmış və Fransanın alman işğalı illərində yaşadığı faciənin bədii inikasını verən "Qisas" hekayəsini Somerset Moem İkinci Dünya müharibəsi günlərində, yəni 1944-cü ildə yazmışdı. Yaxud Şoloxovun "İnsanın taleyi" əsəri İkinci Dünya müharibəsinin başa çatmasından 11 il sonra və (həm də tam zamanında) yazıldı. O ki qaldı Azərbaycan ədəbiyyatında Qarabağdakı zəfərdən sonra, elə müharibə günlərində də, sonrakı yaxın iki ildə də bəli, əsərlər yarandı. Təsəvvürümüzü aydınlaşdırmaq üçün hətta İkinci Dünya müharibəsi illərində (1941-1945) və İkinci Qarabağ savaşı günlərində (2020, sentyabr-noyabr) dərc olunmuş "Ədəbiyyat qəzeti" komplektlərini müqayisəli şəkildə vərəqləsəniz, çağdaş ədəbiyyatımızda savaş mətnlərinin daha aktiv və daha estet planda yaradıldığını, şeir, nəsr, publisistika baxımından ikinci mərhələdə, yəni öz Vətən müharibəmiz dövründə daha ciddi örnəklərin yaradıldığını, ədəbiyyatımızın ordu ilə iç-içə və eyni tempdə nəfəs aldığını etiraf etməli



"Bu həqiqətdir ki, dünyaya çıxarılacaq mətnlərimiz olmadı. O da var ki, belə bir əsərimiz olsaydı belə, guya dünya adlandırdıqları Qərb bizim hansı həqiqətimizi ürək açıqlığı və səmimiyyətlə qəbul edib ki, bunu da qəbul etsin?"

olarıq. Amma bu da həqiqətdir ki, dünyaya çıxarılacaq mətnlərimiz olmadı. O da var ki, belə bir əsərimiz olsaydı belə, guya dünya adlandırdıqları Qərb bizim hansı həqiqətimizi ürək açıqlığı və səmimiyyətlə qəbul edib ki, bunu da qəbul etsin? Buna qalsa, Qarabağla bağlı siyasətində ikili standartların kölgəsində gizlənən dünya, ədəbiyyatda da estetikaların kölgəsində gizlənəcək və öz ədəbi yalanlarını kriteriya kimi irəli sürəcək. Qarabağdakı zəfərimizi dünya ədəbiyyatı faktına çevirə biləcək romanın, bədii mətnin sorağında olmağımız, əslində, absurddur. Dediyim kimi, belə bir əsər yaransa da dünya onu qəbul etməyəcək. Dünya indi bəlli bir mərhələdən keçir. Ona Xocalıda qətlə yetirilmiş insanların kədəri, yaxud onların qisasını alan millətin zəfərini işıqlandıran əsərlər lazım deyil. Biz dünyanı savaş ədəbiyyatı ilə deyil, dünyanın maraq dairəsində olan estetik təmayülləri məhvərində sərgiləyən əsərlərimizlə heyrətləndirə bilərik.

Digər tərəfdən, indi tutaq ki, dünya ictimai fikrində bir Rusiya örnəyi var. Ukrayna savaşından sonra Qərb bütövlükdə rus mədəniyyətini, o cümlədən hətta Tolstoyu çıxdaş etməkdədir... Keçənlərdə Ukrayna saytlarından birində bütövlükdə rus ədəbiyyatına küfr edən, onu aşağılayan bir yazı oxudum. Yəni ruhən nə qədər azad olsa da, ədəbiyyatın taleyi, daha doğrusu, mətnin taleyi siyasi nüanslara bağlı olur... Orada bəzən balans pozulur, Kobzar dünya üçün Tolstoydan daha önəmli və daha bəşəri olur.

**- 30 il Qarabağın ağrısından, məğlubiyyətdən yazıldı, indi qalibiyyətdən yazılmalıdır. Sizcə, hansı daha çətindir?**

- Hər ikisi çətindir. Müharibə ilham pərisinin qanadlarını yandırır. Nehru demişkən, müharibə mənəvi mədəniyyətin tükəndiyi yerdə baş verir. Lui Araqon Fransanın alman işğalı illərini xatırladıb yazırdı ki, o çətin illərdə Matiss bizə yardım etdi ki, biz günəşi qoruyub saxlayaq. Müharibə bütün hallarda xaosdur. Amma yetər ki, sən o xaosdan Xarıbülbül simvolu ilə çıxasan. Azərbaycan xalqı bunu bacardı. Müharibəni həm də öz estet ruhunun simvolunu yaratmaqla tamamladı...

**- Yaranan əsərləri dünya ictimaiyyətinə çatdırmaq üçün nələr edilməlidir və bunu kim etməlidir?**

- Təbii ki, ədəbiyyat adamlarının, bədii mətnlərin xaricə çıxışı ədəbiyyatımız naminə tərəfsiz münsiflərin nəzarətinə alınmalıdır. Azərbaycana hansı ədəbi mətnlərin dünyaya çıxışı gərəklidirsə, hansı yollasa daha çox onların çıxışı təmin edilməlidir. Həm də dünyaya çıxış bizə nə üçünsə asan görünür. Qarabağ müharibəsi zamanı dünya siyasi birliyi Azərbaycan Prezidentinin güclü intellektinə, siyasi iradəsinə təslim olmasaydı, zəfərlə bitən son Qarabağ savaşımıza münasibətdə, dünya, sizcə, indiki kimi davranacaqdımı? Dünyanın siyasi güclərini susduran və onları Azərbaycanın qələbəsini etiraf etməyə məcbur edən təkcə ordumuzun yüksək peşəkarlığı olmadı, həm də və daha çox Prezidentin parlaq diplomatik məntiqi oldu. Bu təkcə siyasətimizin deyil, eləcə də mədəniyyətimizin, ədəbiyyatımızın yolunu dünyaya açan əsas amil oldu. İndi qalır böyük ədəbiyyatı yaratmaq və onu elə həmin açılmış yolla da dünyaya təqdim etmək...

- Bəziləri iddia edir ki, yaxşı ədəbiyyat nümunəsi yaratmaq üçün öncə müəllifin sosial ehtiyacı təmin olunmalı və ona zaman verilməlidir Razılaşırsınızmı?

**- Yox. Qətiyyən razılaşmıram. "Dövlət məni təmin etsin, mən də Qarabağdakı zəfərimizlə bağlı dünyaya çıxacaq əsəri yazım" - bu, absurd bir istək və uğursuz bir məntiqdir. O zaman Qarabağda qəhrəmanlıq göstərən, yaxud şəhid olan oğullar o torpaqları nəyin qarşılığında işğaldan azad etdilər?**

- Özlərini "As" hesab edən feysbuk şairləri, yazıçıları niyə yazmırlar? Yenə hamı "köhnələrdən" gözləyir

- Sualınıza cavab verməkdə çətinlik çəkirəm. Özlərini "As" hesab edən feysbuk şairləri, yazıçıları bizim söhbətimizin predmeti deyil, məncə.

**Ayyət Əhməd**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi;**

# Azərbaycanda savadlı dini kadrlara ehtiyac böyükdür

## İlahiyyat İnstitutunun yaradılması və daha müasir standartlara cavab verən yeni binaya köçürülməsi çox təqdirəlayiqdir



**Dünyanın bir çox ölkəsində ksenofobiya, islamofobiya, antisemitizm, irqi ayrı-seçkilik tüğyan edir. Lakin Azərbaycan müxtəlif millətlərin və dinlərin nümayəndələrinin qardaşlıq və həmrəylik şəraitində yaşadığı nadir dövlətlərdən biridir. Ölkəmizdəki bu tolerant mühitin yaradılması və inkişafı bilavasitə xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır.**

Ulu Öndər, həmçinin müstəqil Azərbaycanda möhkəm dayaqlara əsaslanan dövlət-din münasibətləri modelinin də əsasını qoyub. Azərbaycan dövlət müstəqilliyini yenidən bərpa etdikdən sonra milli-mənəvi dəyərlərimizin qorunması, dini ibadət ocaqlarının bərpası və inşası daim diqqət mərkəzində olub. Bu gün də cənab Prezident İlham Əliyevin müdrik rəhbərliyi nəticəsində ölkəmizdə dövlət-din münasibətləri ən yüksək səviyyədədir. Ölkə rəhbərinin uzaqgörən siyasəti nəticəsində bütün dünya Azərbaycanı multikulturalizmin və tolerantlığın mərkəzi kimi tanıyır. Dövlətimizin bu siyasətini dünyadakı böyük din mərkəzləri də rəğbətlə qarşılayırlar. Böyük nüfuz sahibi bir çox dini lider Azərbaycanın müxtəlif dinlərin və xalqların nümayəndələrinin sülh şəraitində yaşadığı ölkə olduğunu vurğulayıblar. Birgəyaşayış ənənəsinin ölkəmizin haqlı olaraq fəxr edə biləcəyi dini dözümlülük və qarşılıqlı anlaşma sayəsində mümkün olduğunu bildiriblər. Təəssüflə qeyd edirik ki, müasir dünyanın bir çox yerində dini dəyərləri istismar edən radikal qüvvələrin destruktiv fəaliyyətinə şahid oluruq. O baxımdan dünya dinlərini, o cümlədən islamı, xristianlığı və yəhudiliyi elmi əsaslarla tədris edən təhsil müəssisələrinə ciddi ehtiyac var. Belə müəssisələrin mövcudluğu ali dini və bəşəri dəyərlərin insanlara çatdırılması, eləcə də dini fanatizmin və radikalizmin qarşısının alınması baxımından xüsusi əhəmiyyət kəsb edir. Məhz o səbəbdən 2018-ci ildə Azərbaycan İlahiyyat İnstitutu yaradıldı. Aprelin 11-də Prezident İlham Əliyev İlahiyyat İnstitutunun yeni binasının açılışını etdi. Dövlət başçısına məlumat verildi ki, İnstitutda İlahiyyat fakültəsi, Dinşünaslıq, İslamşünaslıq, Dillər və ictimai fənlər kafedraları fəaliyyət göstərir. İnstitutda ali təhsil pilləsinin bakalavriat, magistratura və doktorantura səviyyələri üzrə yüksəkixtisaslı kadrlar hazırlanır. Hər üç səviyyədə təhsil dövlət sifarişinə əsasən həyata keçirilir. İnstitutda dinşünaslıq və islamşünaslıq istiqamətlərinin müxtəlif fənləri ilə yanaşı, sosial və humanitar fənlər, həmçinin ingilis, ərəb və ibri dilləri tədris olunur.

**Azərbaycanda dini tədris və tolerantlıq mühiti ilə bağlı "Şərq"ə danışan ilahiyyatçı-alim, "İbrət" ictimai-dini dərgisinin baş redaktoru Hacı Atif İsmayılov bildirib ki, islam dini ilə bağlı cəmiyyətimizin düzgün maariflənməsi üçün savadlı dini kadrlara ehtiyac böyükdür. Ekspert bəyan edib ki, din xadimləri ilə din alimlərini bir-birindən fərqləndirmək lazımdır:** "Ölkəmizdə din xadimləri kifayət qədərdir. Ziyarətgahlarımızda, ocaqlarımızda, hətta bəzi məscidlərimizdə din xadimlərini görə bilərik. Onlar müəyyən dini məsələlərlə bağlı xidmət göstərirlər. Hətta bəzilərinin dini bilikləri olmasa belə, öz əxlaqları və xoş niyyətləri ilə ziyarətgah kimi yerlərdə fəaliyyətlərini davam etdirirlər. Ancaq dini alimlər başqadır və bu gün ölkədə ethiyac duyduğumuz məhz həmin alimlərdir. Ona görə də islam alimlərinin yetişdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan İlahiyyat İnstitutunun yaradılması və daha müasir standartlara cavab verən yeni binaya köçürülməsi çox təqdirəlayiqdir. Alimlər dinin bütün dərinliklərini mükəmməl bilməklə yanaşı, həm də islamı düzgün təbliğ etməyin, insanlara çatdırmağın yollarını da bilməlidir. Din alimlərinin cəmiyyətə verdiyi töhfə olduqca mühümdür. İlahiyyat İnstitutunun da əsas məqsədi bu cür alimlər yetişdirməkdir. Ümid edirik, institutun məzunları tələb olunan kriteriyalara cavab verəcəklər".

**İlahiyyatçı Əkrəm Həsənov da "Şərq"ə bildirib ki, İlahiyat İnstititunun yeni binasının açılışı ölkə rəhbərliyinin dinimizə, milli-mənəvi dəyərlərimizə necə böyük qayğı ilə yanaşdığının əyani sübutudur. Ekspertin sözlərinə görə, Azərbaycanda vacib məqamlardan biri də islam dininin elmə, məntiqə söykənərək öyrənilməsi, tədqiq edilməsidir:** "İlahiyat İnstitutu məhz bunu həyata keçirir. Müasir dövrdə din sahəsinə səhlənkar yanaşmaq doğru deyil. Çünki belə halda xurafat, cəhalət, radikalizm meyilləri arta bilər. Ölkədə dini təhsilin fəaliyyəti daha da gücləndirilməlidir. İlahiyat İnstitutunun dini təhsillə yanaşı dünyəvi elmlərə də üstünlük verməsi olduqca önəmli nüansdır. Orta və ali təhsil ocaqlarında dinin ümumi nəzəriyyələri, əsas qayələri gənclərə öyrədilməlidir. Gənc və savadlı ilahiyyatçı kadrlar dinimizin yad təsirlərdən qorunmasına töhfə verməlidirlər".

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Ukraynaya dəstək səfərləri intensivləşəcək

## Müharibə uzandıqca, daha çox ölkə Rusiyaya qarşı səfərbər olacaq



**Ukrayna Prezidenti V.Zelenski Almaniya Prezidenti Valter Steynmerin digər Avropa liderləri ilə birgə Ukraynaya səfərə gəlməsinə qadağa qoyub.**

Bu məlumatı Almaniyanın "Bild" qəzeti yayıb. Nəşrin yazdığına görə, Polşada olan Steynmer Latviya, Litva, Estoniya və Polşa liderləri ilə birgə Ukraynaya səfərə getmək istəyib. Ancaq onun görüş üçün xahişi Zelenski tərəfindən rədd edilib. Qəzet bunun səbəbini Steynmerin aid olduğu Almaniya Sosial Demokratlarının Rusiya Xarici işlər naziri Sergey Lavrova keçmişdəki yaxınlığı və prezidentin Almaniya-Rusiya iqtisadi əlaqələrinin müdafiəçisi olmağı ilə əlaqələndirib: "Biz hamımız Steynmerin Rusiyaya yaxın bağlılığından xəbərdarıq. Kiyevdə onu indi heç kim görmək istəmir". Steynmer Kiyevdə arzu olunmadığını bildirib. Ukrayna prezidentinin aparat rəhbərinin müşaviri Aleksey Aretoviç isə bildirib ki, Zelenski praktiki məsələləri, o cümlədən silah təchizatını müzakirə etmək üçün Almaniya kansleri Olaf Şoltsun Kiyevə səfərini gözləyir. Almaniya kansleri Olaf Şolts isə hələlik Ukraynaya səfər etmək niyyətində olmadığını söyləyib. Kansler bildirib k, ölkəsi Ukraynaya silah tədarükünü davam etdirir və müttəfiqləri ilə sıx əlaqə saxlayır.

**Politoloq Vasif Əfəndiyev "Şərq"ə açıqlamasında bildirib ki, Böyük Britaniyanın Baş naziri Boris Consonun Kiyevə səfərindən sonra Avropa ölkələrinin liderlərinin Ukraynaya dəstək səfəri intensivləşəcək. Analitikə görə, müharibə uzandıqca, daha çox ölkə Rusiyaya qarşı səfərbər olacaq:** "Almaniya rəhbərliyinin Ukraynaya səfərinin hələlik reallaşmaması sırf texniki xarakter daşıyır. Zelenskinin alman prezidentini "arzuolunmaz siyasətçi" elan etməsi ağlabatan deyil. Bununla bağlı yayılmış məlumat həqiqəti əks etdirməyə bilər. Çünki Zelenskinin indiki durumunda belə bir addım atması ağılsızlıq olar. Şəhər və qəsəbələrin dağıdılmasına baxmayaraq Ukrayna strateji və taktiki baxımdan çox uğurla müdafiə olunur. Rusiya ordusunun bir-birinin ardınca təkrarlanan uğursuz hücumları Prezident V.Putini daha qəddar davranmağa, ağılsız addımlar atmağa sövq edir. Məhz bu məqam Rusiyaya qarşı hələlik loyal olan Qərb dövlətlərini, ələlxüsus Almaniyanı da Moskva əleyhinə kökləyəcək. Sevindirici məqam odur ki, dünya güclünün yox, haqlının tərəfindədir".

**İsmayıl Qocayev**

# "İstənilən məktəbə gedin, müşahidə edin"

## Nabatəli Qulamoğlu: "Bizim müəllimlər hələ də sinif otağına çomaqla, çubuqla girir"



***"Belə bir mühitdə kurikulum sistemi əlbəttə ki, özünü doğrultmayacaqdı"***

**Təhsil naziri Emin Əmrullayev məktəbəqədər hazırlıq qruplarında kurikulum sistemini ləğv edib. Daha məktəblərdə 5 yaşından hazırlıq qrupları olmayacaq. Uşaqlar əvvəl olduğu kimi bağçada məktəbəqədər qruplarda təhsil alacaq, sonra məktəbə gedəcək.**

Bu qərar cəmiyyətdə müəyyən fikir ayrılıqları yaradıb. Valideynlər kurikulumun ləğv edildiyinə sevinsə də, təhsil işçiləri bunu doğru addım hesab etmir. Maraqlıdır, vaxtilə Azərbaycan təhsilinin nicatı kimi qiymətləndirilən bu təhsil proqramı niyə özünü doğrultmadı?

"Məktəblərdəki məktəbəqədər qruplarda 5 yaşlı uşağa 1-ci sinfin proqramı keçilirdi, 1-ci sinfə gedən uşaq ilin proqramını - yazmağı, oxumağı, hesablamağı bilirdi artıq. Bu, yaxşı kimi qələmə verilən, amma əslində çox pis şey idi". Bu sözləri "Şərq"ə açıqlamasında sosioloq Lalə Mehralı deyib.

Onun sözlərinə görə, uşağın dərsə marağı qalmır, bildiyi şeyi təkrarlamaq istəmirdi. 5 yaşında oyuncaqlarından ayrılıb məcbur aparıldığı məktəbdə bezdirən dərsə ikrahı yaranırdı: "Bu proqram uşaqları hər şeyi bilməyə məcbur edir, bilməyəndə zəif, qavramayan uşaq kimi qəbul edirlər. Halbuki, uşaq onları 5 yaşında bilməyə məcbur deyil. Amma bağçanın məktəbəqədər hazırlıq qruplarında uşağa partada düzgün oturmaq, müəllimlə düzgün ünsiyyət, ətraf aləm, rənglər, fiqurlar, formalar öyrədilir, yəni bir uşaq məktəbə gedənədək nəyi bilməlidirsə, onu öyrədirlər. Əsl məktəbəqədər hazırlıq proqramı odur yəni".

**Təhsil eksperti Nabatəli Qulamoğlu isə hesab edir ki, alternativ üsul tətbiq etmədən kurikulumu ləğv etmək doğru siyasət deyil:** "Çox maraqlıdır, bu sistemi hansı proqramla əvəz edəcəklər? Bəlkə yeni bir üsul tətbiq ediləcək? Hələ kurikulum sistemi yenicə tətbiq olunmağa başlayanda bu barədə mətbuatda açıqlamalar vermişdim ki, bu sistem bizim təhsil sistemində müsbət effekt verməyəcək. Həmin yazılarda kurikulumun hərtərəfli təhlilini aparıb cəmiyyətə çatdırmaq istəmişdim ki, kurikulum təhsil proqramını həyata keçirmək üçün siyasi, iqtisadi, hüquqi aspektlər bizdə mövcud deyil. Təəssüf ki, fikirlərimiz o vaxt nəzərə alınmadı və bu yolda milyonlar səpələndi. Bəs indi - qatar gedəndən sonra niyə nəticənin olmadığını etiraf edirlər?

Bu sistemə keçməzdən əvvəl təhsilimizdəki vacib problemləri həll etmək lazım idi. Guya, Azərbaycanda təhsil inkişaf edir, dünya təhsil sisteminə inteqrasiya edir görüntüsü yaratmaq üçün kurikulumu məktəblərdə tətbiq etməyə başladılar.

Halbuki, hələ də bizim müəllimlər sinif otağına çomaqla, çubuqla girir. İstənilən məktəbə gedin, müşahidə edin. Görəcəksiniz müəllim qışqırır "getmə, dayan, çıx bayıra". Bütün bunlar onu göstərir ki, Azərbaycan müəllimi müasir zamanın tələblərinə uyğun insanlar deyil. Əlində həmişə çubuq, xətkeş olur. Belə bir mühitdə kurikulum sistemi əlbəttə ki, özünü doğrultmayacaqdı. Çünki kurikulum sisteminin başlıca məqsədi təhsil yolu ilə avtoritar cəmiyyətləri demokratikləşdirməkdən, müəllim-şagird münasibətlərinə yenilik gətirmək, valideyn-müəllim münasibətlərini dəyişməkdən ibarətdir. Amma bizim təhsil sistemində bunların heç biri baş vermədi.

Kurikulum şagirdlərə yeni düşüncə qabiliyyəti aşılayan bir sistemdir. Məhz bu sistem Azərbaycan təhsilinə şagirdin mətn üzərində işləyərək analitik təfəkkür nümayiş etdirməsi faktını gətirib. Hər nə qədər gözləntiləri doğrultmasa da kurikulumun müsbət cəhətləri mənfi cəhətlərindən çoxdur. Yeni qərarı doğru hesab etmirəm".

**Şəymən**

# Azərbaycanda iqtisadi artım tempi yüksəlib

## Bu ilin ilk rübünün nəticələrini müsbət qiymətləndirməyə imkan verir



**"Azərbaycanda iqtisadi artım tempinin yüksəlməsi bu ilin ilk rübünün nəticələrini müsbət qiymətləndirməyə imkan verir".**

Bu barədə millət vəkili Vüqar Bayramov deyib. Prezident İlham Əliyevin ilin birinci rübünün yekunlarına həsr olunmuş müşavirədə çıxışına münasibət bildirən deputat bəyan edib ki, qlobal şokların aktiv olmasına baxmayaraq ötən rübdə Azərbaycan iqtisadiyyatı sürətli artım tempini qoruyub saxlaya bilib: "Birinci rübdə ümumi daxili məhsul 6,8 faiz artıb. Qeyri-neft iqtisadiyyatı isə 10 faizdən çox böyüyüb. Bu ilin əvvəlində minimum əmək haqqının və eləcə də dövlət sektorunda çalışanların maaşlarındakı artım ölkə üzrə orta aylıq əmək haqqı məbləğinə təsirsiz ötüşməyib. 2022-ci ilin yanvar-fevral aylarında orta aylıq əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 11,0 faiz artaraq 768,3 manat olub. Bu ilin ilk 3 ayında ixrac idxalı 5,1 milyard dollar üstələyib və bu da xarici ticarət balansında böyük müsbət saldonun yaranmasına səbəb olub. Sözügedən müddətdə dünya bazarında müşahidə edilən qiymət artımları Azərbaycan istehlak bazarına da təsirsiz ötüşməyib. Cari ilin mart ayında istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 101,1 faiz, əvvəlki ilin mart ayına nisbətən 112,1 faiz təşkil edib. Ancaq bütövlükdə, bu ilin ilk rübünün nəticələri Azərbaycan iqtisadiyyatında artım tendensiyasının davam etdiyindən xəbər verir. 2021-ci ildə Ümumi Daxili Məhsul 5,6 faiz böyümüşdürsə, 2022-ci ilin ilk 3 ayında artım 6.8 faizədək yüksəlib. Bir sıra əsas ticarət tərəfdaşlarımızdakı valyuta qıtlığının müşahidə edilməsi fonunda Azərbaycanda iqtisadi artım tempi yüksəlib".

**İsmayıl**



# Vətəndaşlar sələmçilərə üz tutur

## Deputat problem sadalayır, ekspert çıxış yolu göstərir

**Aprelin 12-də Milli Məclisin yaz sessiyası çərçivəsində növbəti plenar iclası keçirilib.**

İclas zamanı millət vəkili Fazil Mustafa əhalini narazı salan məmurlardan söz açıb. Parlamentari vurğulayıb ki, artıq vətəndaşlar bankdan deyil, deputatlardan borc istəyir, məşğulluğa yox, deputata üz tuturlar: "Rayonlarda onlarla insan maaş, pensiya kartını sələmçiyə verib, çünki dolana bilmirlər". Məsələ ilə bağlı iqtisadçı Xalid Kərimli "Şərq"ə danışıb: "Banklar vətəndaşlara kredit vermək istəyir. Ancaq bunun üçün girov təminatı şərtini qoyur. Çünki müştərinin həmin borcu qaytaracağına əmin deyil. Banklara müştərilərinin rəsmi gəlir yerləri maraqlıdır". Onun sözlərinə görə, vətəndaşlar bankların şərtlərinə uyğunlaşa bilmədiklərinə görə deputatlara, o cümlədən də, sələmçilərə üz tuturlar: "Sələmçi həmin məbləği onlara baha versə də, adamlar bu üsuldan məcbur olduğu üçün istifadə edirlər. Əhalinin belə çətin durumlar qarşısında qalmaması üçün dövlət tərəfindən verilən sosial yardımlar artırılmalıdır".

**Günəş Mərd**

# Türkiyə təcrübəsindən yararlanmağa böyük ehtiyac var

## Qardaş ölkənin peşə təhsili müəssisələrinin əksəriyyəti dünya reytinqində öncül yerlərdədir

**Azərbaycanın iki təhsil müəssisəsi Türkiyə ilə birgə fəaliyyət göstərəcək. Bu əməkdaşlıq Türkiyə və Azərbaycan arasında peşə təhsili sahəsində imzalanan protokol çərivəsində baş tutacaq.**



Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktor müavini Ceyhun Kərəmovun dediyinə görə, beynəlxalq təcrübənin peşə təhsili sahəsinə gətirilməsi və beynəlxalq əməkdaşlıqların yaradılması istiqamətində müəyyən işlər görülür. "Protokol çərivəsində Türkiyənin Bursa şəhərində yerləşən bir neçə məktəbin nümayəndələri Bakıya səfər edərək, ölkəmizin bir çox məktəbləri ilə qardaşlıq müqavilələri imzalayıb".

***"İnanıram ki, Azərbaycan-Türkiyə birgə ali məktəbin yaradılmasına dair danışıqlar da müsbət nəticə verəcək. Eyni zamanda xarici ölkə təcrübəsinin ölkəmizə gəlməsinə şərait yaradacaq"***

**Təhsil eksperti Kamran Əsədov "Şərq"ə açıqlamasında Azərbaycan-Türkiyə təhsil əlaqələrinin hər il yüksələn xətt üzrə getdiyini deyib.**

Azərbaycanın hələ sovet dönəmi zamanından Türkiyə ilə ali təhsil sahəsində əlaqələr yaratmağa başladığını vurğulayan ekspert deyib ki, bu əlaqələr mövcud dövrün siyasi tələblərinə uyğun aparılıb və müstəqil olmayıb: "Bu da iki qardaş xalqın milli maraqlarının təmin edilməsi istiqamətində mənfi hal kimi dəyərləndirilib. Amma ölkəmizdə müstəqillik bərpa olunduqdan sonra Azərbaycan Türkiyə ilə təhsil sahəsində əməkdaşlığa daha böyük önəm verib. 1992-ci ilin 16-23 may tarixində Ankarada türk dövlətlərinin təhsil nazirlərinin toplantısı keçirilib və bu yığıncaqda təhsil sahəsindəki əməkdaşlıqdan, onun qarşısında duran problemlərdən bəhs edilib. Belə ki, bu toplantıda qardaş dövlətlərin təhsil işində bir-birilərinə yaxından kömək etməsi, təhsil ocaqlarının qarşılıqlı təşkili, bu işlərdə qarşıda duran problemlər və bu problemlərin birgə aradan qaldırılması və s. məsələlər geniş müzakirə edilərək lazımi qərarlar verilib.

Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında təhsil sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün sonrakı illərdə də siyasi və hüquqi bazanın möhkəmləndirilməsi istiqamətində xeyli tədbirlər həyata keçirilib".

**K.Əsədovun sözlərinə görə, son illərdə görülən işlərin nəticəsində Türkiyə tərəfinin yeni təlim texnologiyaları sahəsindəki bilik və bacarıqlarını Azərbaycan tərəfi ilə bölüşməyi, dərs vəsaitlərinin hazırlanmasında və müəllimlərin bu sahədə ixtisasartırmaları istiqamətlərində, həmçinin Azərbaycan tərəfinin Dünya Bankı və başqa beynəlxalq qurumlarla həyata keçirəcəyi layihə fəaliyyətlərinə hər cür texniki yardım göstərməsi olduqca müsbət haldır:** "Türkiyənin Qazaxıstan və digər bir neçə ölkə ilə birgə peşə təhsili müəssisəsi fəaliyyət göstərir. Bütün sahələrdə Azərbaycanla qardaşlıq münasibətində olan dost ölkənin Azərbaycanla da ortaq təhsil müəssisəsi yaratması çox mühüm hadisədir. Türkiyə peşə təhsili müəssisələrinin əksəriyyəti dünya reytinqində öncül yerlərdədir və məzunları müasir standartlara, əmək bazarının tələblərinə tam şəkildə uyğun gəlir. Onu da deyim ki, Azərbaycanda xarici ölkə peşə təhsili müəssisəsilərinin olması ölkədə ali təhsil müəssisələri arasında rəqabət mühitini də formalaşdıra bilər.

Ona görə də onların təcrübəsindən yararlanmağa böyük ehtiyac var. Mövcud qanunvericiliyə görə, Azərbaycan və Türkiyə birgə peşə təhsili müəssisəsi yarada bilər. Belə bir ali məktəbin yaradılması üçün iki ölkə arasında təhsil müqavilələri olmalıdır ki, Azərbaycan və Türkiyə arasında da kifayət qədər çox istiqamətli müqavilələr var".

**Azərbaycanın birgə peşə təhsili müəssisəsi təsis etmək təcrübəsinin olduğunu qeyd edən təhsil eksperti deyib ki, hazırda Azərbaycan və Fransa birgə peşə təhsili müəssisəsi - UFAZ yaradılıb və fəaliyyət göstərir:**

"İnanıram ki, Azərbaycan-Türkiyə birgə ali məktəbin yaradılmasına dair danışıqlar da müsbət nəticə verəcək. Eyni zamanda xarici ölkə təcrübəsinin ölkəmizə gəlməsinə şərait yaradacaq. Mövcud qanunvericiliyə görə, Azərbaycan və Türkiyə birgə peşə təhsili müəssisəsi və orta məktəb yarada bilər. Ali məktəblərin yaradılması ilə bağlı da belə bir təhsil müqaviləsi imzalanmalıdır.

Bakıda, "Ağ Şəhər" adlanan ərazidə Bakı-Fransız Liseyi və UFAZ peşə təhsili müəssisəsi var. Seçinov adına Moskva Tibb Peşə təhsili müəssisəsinin , Lomonosov adına Moskva Beynəlxalq Universitetinin Azərbaycanda filialları var. Türkiyə universitetlərinin də Azərbaycanda filialının yaradılması yerli kadrların hazırlanması baxımından çox yaxşı olar.

**Şəymən**

# "...Dünya-aləm vecimə deyil"

## Ayan dara düşəndə heç kimə zəng vurmur



**"Düz deyirlər şou-biznesdən dost olmur". "Şərq"in məlumatına görə, bu sözləri müğənni Ayan Babakişiyeva "Söz Baz" proqramının kameralarına deyib.**

"Dara düşsəm, heç kimə zəng vurmaram. Qadın kimi problemimi söyləsəm, qaçacaqlar. Ona görə dünya-aləm vecimə deyil" - deyə ifaçı vurğulayıb.

**Aygün**

# Növbəti klipində arıq görünəcək

## Damla 9 saatlıq əməliyyat keçirib



**Müğənni Damla (Məsumə Əliyeva) bir neçə gün öncə 9 saatlıq plastik əməliyyat edib.**

"Şərq"in məlumatına görə, ifaçı "Xəzər" TV-yə əməliyyat sonrası açıqlama verib: "Növbəti klipdə arıq görünmək üçün əməliyyata girdim. Rejissorumun istəyi idi. Mən də yerinə yetirdim".

**Aygün**

Millət vəkili, akademik Nizami Cəfərov və "Siyasət və gerçək uğur" jurnalının kollektivi dəyərli ziyalı, iş adamı İnqilab Həziyevə anası

**Mülayim xanımın**

vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin!**

**Elan**

Mehbalıyeva Vüsalə Saleh qızına Abşeron rayon, Masazır qəsəbəsi, Qurtuluş-93, Bağçalı Evlər MTK tərəfindən verilmiş blok 1, mərtəbə 8, mənzil 27 b-yə aid müqavilə və maliyyə arayışı itdiyi üçün etibarsız sayılır.

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**
**KURSLAR**
**-MÜHASİBAT** (2 AY)
**-Mobil telefonların təmiri** (3 ay)
**-KOMPYUTER** (1-3 AY)
**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)
**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)
-**Dizayn** (3-6ay)
-**Masaj** (3 ay)
-**Biçmə - Tikiş** (3 ay)
**-Məktəb Psixologiyası** (12 ay)
**Tel: (012) 489-08-84**
**Mob: (070) 241-28-67**
**www.az-baku.com**

# Monoton cəmiyyət yaranır

## Heyrətlə izlədiyimiz yadplanetlilərə bənzəməyə başlayırıq



*(Əvvəli səh: 8-də)*

**Türkmənistanda dodaqların böyüdülməsi, dırnaq qaynağı, botoks, qırışların aradan qaldırılması kimi bir sıra estetik əməliyyatlar qadağan edilib.**

Türkmənistanın Məryəm vilayəti Bayraməli şəhərinin hüquq-mühafizə orqanları gözəllik salonlarının işçilərinə xəbərdarlıq edib ki, qadağan olunmuş xidmətlərin göstərilməsinə davam edəcəkləri təqdirdə cərimə olunacaqlar, hətta azadlıqdan da məhrum edilə bilərlər. Gözəllik salonlarının işçiləri isə məhz bu xidmətlər sayəsində dolandıqlarını, qazanc əldə etdiklərini deyərək, qadağaların tətbiqinin onların sonu olacağını deyir. Estetik əməliyyatlara qadağaların hansı səbəblə tətbiq edildiyi açıqlanmır. Ehtimal edilir ki, Türkmənistanın yeni prezidenti, görünür, türkmən qadınlarının təbii gözəlliklərini və özəl xüsusiyyətlərini, türkmənlərə məxsus üz cizgilərini getdikcə itirmələrindən narahatdır. Belədirsə, əlbəttə, bu artıq milli məsələdir. Həqiqətən də müxtəlif estetik əməliyyatlar son 10 ildə çox geniş yayılıb. Qadınlar, hətta artıq kişilər də inkubator cücəsi kimi bir-birinə bənzəyir. Cəmiyyətdə fərqliliyin yerini monotonluq tutur. Vaxtilə heyrətlə izlədiyim yadplanetlilərə bənzəməyə başlayırıq. Görüntünü bir kəanra qoysaq, şübhəsiz, lazımsız estetik əməliyyatlar sağlamlığa da ziyandır.

**Fəlsəfə doktoru Şəmsiyyə Namazlı "Şərq"ə açıqlamasında estetik əməliyyatların geniş yayıldığını dedi:**

- Bu bir gerçəklikdir ki, son illərdə estetik əməliyyatlar çox yayılıb, az qala 2 nəfərdən biri estetik əməliyyat etdirir. Dünya miqyasında bu sahədə inkişaf var. Müxtəlif vasitələr meydana çıxır, insan üzərində tətbiq edilir. Estetik və ya kosmetik əməliyyat o zaman zəruri hal alır ki, sağlamlığa ziyanı olsun. Deyək ki, əgər birisinin nəfəs almasında problem varsa, burun çəpəri əyriliyi səbəbindən çətin nəfəs alırsa, dodaqlarında hansısa qeyri-estetik görünüş varsa, üz dərisində keçirdiyi hansısa xəstəlik səbəbiylə qüsurlar yaranıbsa... bu zaman estetik əməliyyat vacib hal alır. Amma zərurət yoxdursa, insanın üz cizgiləri normaldırsa, ona kənar müdaxilə düzgün deyil. Bu, ilk növbədə sağlamlığa ziyandır. Normal halda burun daxilində qığırdaqlar var. Burun forması dəyişdirilərkən qığırdaqlara ziyan dəyir. Əzələlər tonusunu itirir. Əzələləri möhkəm saxlayacaq bir vətər qalmır. Nəticədə bir neçə ildən sonra burun sallanır, insan nəfəs ala bilmir. Dodaq da belədir, üz də. Tibdə içli sinirlər deyilən sinirlər var ki, bir neçə istiqamətdə şaxələnirlər. Göz qapağına, göz kənarlarına, dodaqlara estetik müdaxilə edildikdə, əgər bunu edən naşıdırsa, həmin sinirləri zədələyə bilər. Nəticədə göz qapaqları sallanacaq, ağız bucağı əyiləcək. Belə eybəcər formaya düşmüş insanlarla çox qarşılaşırıq. Dəri altına vurulan gellərin tərkibi haqqında heç bir məlumat yoxdur. Bəlkə bu gellər gələcəkdə xərçəng xəstəliyi yarada bilər? Gözəllik salonlarında çalışanların çox zaman uyğun ixtisası olmur. Onlar hansısa başqa peşənin sahibləridir, amma kosmetoloqluq edir, estetik görünüşü dəyişdirirlər. Kosmetoloq istifadə etdiyi hər bir maddənin tərkibindən xəbərdar olmalıdır. Yoxsa ki, ordan-burdan əldə etdiyi bilgilərlə kosmetoloq işləyirlər və bəzən nəticə kədərli olur.

### İnsanlar standart görkəm alır artıq, görünür buna görə Türkmənistan qadağalara başlayıb

**Türkmənistanda estetik əməliyyatların qadağan olunmasına gəlincə, Ş.Namazlı bunun demokratik cəmiyyətlər üçün keçərsiz olduğunu dedi:**

- Məlum məsələdir ki, Türkmənistan demokratik dəyərlərə o qədər də dəyər verilmədiyi ölkədir. Fizionomiyadakı dəyişikliklərə insan özü qərar verir, bu, hər bir insanın şəxsi seçimidir. Qadağalar çox zaman effektiv olmur. Və bu, yanlışdır. Amma düşünəndə ki, artıq cəmiyyətdə monotiplik yaranıb, insanlar standart görkəm alır artıq, bir tərəfdən onlara haqq qazandırmaq da olur. Görünür, məcbur olub qadağan edirlər. Qadağalarla kütləvi "dəyişikliyin" qarşısını almağa çalışırlar. Hesab edirəm ki, kamil insan özü doğru qərarlar verməlidir. Tanrının insana bəxş etdiyi ən böyük və təkrarolunmaz gözəllik gənclikdir. Gənc insan özlüyündə, təbii halında gözəldir, ona kənar müdaxilə lazım deyil. Qocalanda, ümumiyyətlə lazım deyil, çünki bu, daha eybəcər və yersiz görünür. İnsan nə qədər çalışsa da ki gənc görünsün, bu, mümkün deyil. Yaş öz sözünü deyir. Əksinə, yaşlı insanların "gözəl, gənc görünmək" naminə estetik əməliyyat etdirməsi cəmiyyətdə xoş qarşılanmır.

**Məlahət Rzayeva**

# Bankların əksəriyyəti təhlükəsizliyə az vəsait ayırırlar

**Son vaxtlar ölkəmizdə bank kartlarından istifadə ilə bağlı problemlər müşahidə edilir. Kartlardan, bankomatlardan pul çıxarmaq, POS-terminallarla ödəniş etmək bəzi hallarda mümkün olmur. Vətəndaşlar da mövcud durumdan narazılıqlarını dilə gətirirlər.**




## Ona görə kartların istifadəsində problemlər yaşanır

"Azərbaycan Banklar Assosiasiyası" İctimai Birliyinin sədri Zakir Nuriyev isə düşünür ki, Azərbaycanın kart infrastrukturunda elə bir ciddi problem yoxdur: "Eyni problemlə istənilən ölkədə qarşılaşmaq olar. Hər hansı kartda texniki nasazlıq bütövlükdə sistemin pis işləməsi anlamına gəlmir. Təbii ki, müştəri öz bankı ilə əlaqə saxlayaraq məsələnin nə yerdə olduğunu aydınlaşdıra bilər. Bəzən 10 milyon kartın bir, yaxud beşində problem olur. Bu, milyonda bir faizdir. Yəni bunu sistemin işləməməsi kimi göstərmək düzgün olmaz və problemin aradan qaldırılması üçün anında tədbir görülür".

**Bank məsələləri üzrə ekspert, iqtisadçı Əkrəm Həsənov "Şərq"ə açıqlamasında bildirib ki, Z.Nuriyevin dediyi kimi, dünyanın hər yerində kartlarla bağlı problem yaranır:** "Əgər bu hallar mütəmadi baş verirsə və bank müştərilərinin xeylisi bundan şikayət edirsə, bu artıq bank sisteminin problemi deməkdir. Bəzən vaxtaşırı kiminsə kartında texniki nasazlıq olur. Məsələnin kökündə banklarımızın əksəriyyətinin informasiya texnologiyalarının təhlükəsizliyinə son illərdə az vəsait ayırması dayanır. Bu da məhz bank sisteminin problem yaşamasına gətirib çıxarır. Çünki kartdan istifadənin mümkünsüzlüyü məhz bankın İT sistemində problem olmasından xəbər verir. Bu sistemləri də banklar daim təkmilləşdirməlidir".

**Sücayət Mehti**

# "Nar" yenilənmiş satış və xidmət mərkəzini təqdim etdi



**"Nar" Memar Əcəmi metrostansiyası yaxınlığındakı, M.Cəfərov 3005 ünvanında yerləşən ən böyük satış və xidmət mərkəzini tamamilə yeni konsepsiyada müştərilərin ixtiyarına verib.**

Şirkətdən verilən məlumata görə, mərkəzdə müştəri xidməti və satış vahid məkanda təqdim edilir. Mağazada ziyarətçilərə nömrələrin satışı, bərpası, eyni zamanda dublikatının çıxarılması da daxil olmaqla, müxtəlif növ xidmətlər göstərilir. Həmçinin mobil telefonların, cihazların və aksesuarların satışı da həyata keçirilir. "Azerfon"un Baş İcraçı direktoru Qunnar Pankenin sözlərinə görə, şirkət müştəriyönümlü strategiyasının bir hissəsi kimi, həm Bakı, həm də bölgələrdəki bütün satış və xidmət mərkəzlərini yeniləməyi hədəfləyib: "Paytaxt və regionlar üzrə 40 "Nar" mağazasını tamamilə yeni konsepsiyada müştərilərimizin ixtiyarına vermişik. Müştərilərimizə ölkə ərazisində harada olmasından asılı olmayaraq, istənilən "Nar" mağazasında eyni mənzərə, eyni proses və sorğuların eyni şəkildə cavablandırılması təcrübəsi bəxş edirik. Müştərilərimizə daha yaxın olmaqla, məlumat və xidmətlərin daha rahat əldə edilməsini təmin edirik. Yenilənmiş satış və xidmət mərkəzlərimizdə müştərilərimizə ən qabaqcıl alış-veriş və üstün xidmət təcrübəsi göstəririk".

*Qeyd edək ki, "Nar" müştəri yönümlülük dəyərlərinə sadiq qalaraq, bütün ölkə boyu eksklüziv diler və xidmət mərkəzlərini yeni konseptdə təqdim etməkdədir. Daha 27 "Nar" mağazanın təmir olunması planlaşdırılır. Sizə yaxın olan satış və xidmət mərkəzlərinin ünvanları haqqında ətraflı məlumatı www.nar.az/map internet səhifəsindən öyrənə bilərsiniz.*

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1023



## Beynəlxalq təşkilatlar çağırış edib

### Aclığın qarşısını almaq lazımdır

**Dünya Bankı, Beynəlxalq Valyuta Fondu (BVF), Ümumdünya Ticarət Təşkilatı (ÜTT) və BMT-nin Ümumdünya Ərzaq Proqramının (ÜƏP) rəhbərliyi Ukraynadakı vəziyyətlə əlaqədar dünyada ərzaq təhlükəsizliyini təmin etmək üçün təcili tədbirlər görməyə çağırıblar.**

"Report" TASS-a istinadən xəbər verir ki, bu barədə dərc olunmuş birgə bəyanatda deyilir.

"Biz beynəlxalq ictimaiyyəti təcili ərzaq tədarükü, maliyyə dəstəyi, kənd təsərrüfatı məhsullarının istehsalının artırılması və açıq ticarətdən başlamaqla koordinasiyalı tədbirlər vasitəsilə həssas ölkələrə təcili dəstək verməyə çağırırıq", - məlumatda qeyd edilir.

## Məşhur cütlük Ukrayna üçün 45 milyon dollar topladı



**Hollivud ulduzları Mila Kunis və həyat yoldaşı Eşton Katçerin Ukraynaya yardımları davam edir.**

Axşam.az xarici mətbuata istinadən xəbər verir ki, cütlük artıq Ukraynaya kömək etmək üçün 45 milyon dollar toplayıb. Onların səyləri nəticəsində bir neçə milyonçu, logistika şirkəti və "Airbnb" mənzil kirayəsi şirkəti də xeyriyyə aksiyasına qoşulub. Cütlük Ukrayna ordusuna 20 min zirehli geyim də göndərib.

*Qeyd edək ki, Mila Kunis Ukraynada anadan olub.*

## Kolleksiya hazırlayacaq, 3 milyon qazanacaq



**Ramazan ayında səhnələrə ara verən Gülşen bir marka üçün işə başlayıb.**

**Olay xəbər verir ki, ifaçı bir geyim brendinə kolleksiya hazırlayacaq. İki illik müqavilə imzalayan Gülşen bu işbirliyindən 3 milyon lirə pul qazanacaq. 45 yaşlı müğənninin çalışacağı marka Hadise və Ajda Pekkan kimi məşhurların da seçimidir.**

**Müğənninin kolleksiyası yay aylarında bazarlanacaq.**

## Kıvanç Tatlıtuğun eynəyi 25 minə satıldı



**Türkiyəli aktyor Kıvanç Tatlıtuğun küçə heyvanları adından "Göktürk Heyvansevərlər Dərnəyi"nə hədiyyə etdiyi gün eynəyi hərraca çıxarılıb.**

**Axşam.az xəbər verir ki, eynək 25 min lirəyə (təxminən 2 min 912 manat) satılıb. Satışdan əldə olunan gəlir dərnəyin hesabına köçürülüb.**

**Qeyd edək ki, 1970-ci il istehsalı eyneklərin qiyməti 10 min lirə olub və onlar Kıvançın həyat yoldaşı Başak Tatlıtuğ tərəfindən dərnəyə bağışlanıb.**

## Müğənni boşanıb, Mayamiyə köçür



**Ötən günlərdə həyat yoldaşı ilə boşanan türk müğənni Petek Dinçöz Mayamiyə köçüb.**

**Olay xəbər verir ki,Türkiyədən köçən sənətçi bunun oğlunun təhsili ilə bağlı olduğunu söyləyib. Uzun müddət ABŞ-də yaşayacağını bildirən Petek getməmişdən öncə sahibi olduğu gözəllik salonunu da bağlayıb.**

***Qeyd edək ki, Serkan Kodaloğluyla 2014-cü ildə evlənib. Onların borc məsələsinə görə ayrıldığı iddia edilir.***

## Mahsun Kırmızıgüldən keçmiş xanımına 30 milyon qaldı



**Türkiyəli müğənni Mahsun Kırmızıgüllə keçmiş həyat yoldaşı Ece Binayın boşanma məhkəmələri ilə bağlı detallar ortaya çıxıb.**

**Axşam.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, 60 milyon lirəlik miras bölgüsündə 30 milyon lirə (təxminən 3 milyon 498 min manat) Ece Binaya verilib.**

***Qeyd edək ki, bir müddət öncə başqa xanımla görüntüləri yayılan sənətçi 2 gün öncə həyat yoldaşıyla boşanıb. Mahsun və Ecenin bu evlilikdən bir qızı var. Məhkəmə uşağın vəlayətini isə anasına verib.***





# Kraliçanı erkən "öldürdülər"

## Dünya mediasının qulağı səsdədir

**İngiltərənin yaşlı və səhhətində problemlər olan kraliçası II Elizabetlə bağlı dünya mediasının qulağı səsdədir: "bu gün ölər, sabah ölər".**

Media indidən xəbər hazırlıqları görür. "Şərq" "NTV.com.tr"yə istinadən bildirir ki, Braziliyanın "Folha de Sao Paulo" qəzeti isə hamıdan önə keçməyə çalışaraq "İngilis kraliçası öldü" xəbərini internet səhifəsində manşetdən verib. Və, gülüş obyektinə çevrilib. Xəbərdə kraliçanın hansı yaşda və nədən öldüyünə dair heç bir məlumat verilmir, bunların üzərindən keçilir. Yalnız "İngiltərənin ən uzun müddət taxtda qalan hökmdarı tarixə qovuşdu", yazılıb. Xəbərin feyk olduğu bilindikdə isə qəzet məlumatı internet səhifəsindən çıxarıb, bunun texniki qüsur olduğunu bildirərək üzr istəyib. Əhvalat sosial mediada da lağ-lağıya çevrilib. Hətta Braziliya lideri Bolsonaronun tərəfdarları qəzeti tənqid edərək "Kraliçanı vaxtından əvvəl "öldürdülər", belə getsə, Bolsonaronu da "öldürəcəklər", deyə təpki veriblər. Kraliçanın vəfatının yaxınlaşması ehtimalı hardan doğur? Məlumdur ki, II Elizabet koronavirusa yoluxmuşdu. Bir müddət gözə görünməyən kraliça sağalıb ictmaiyyətə arasına çıxdıqda özü haqqında "yorğun və tükənmiş" ifadələrini işlətmişdi. Yəqin buna görədir ki, dünyanın gözü kraliçanın üzərindədir.

**Məlahət**





# Monoton cəmiyyət yaranır

## Heyrətlə izlədiyimiz yadplanetlilərə bənzəməyə başlayırıq

**Türkmənistanda dodaqların böyüdülməsi, dırnaq qaynağı, botoks, qırışların aradan qaldırılması kimi bir sıra estetik əməliyyatlar qadağan edilib.**

Türkmənistanın Məryəm vilayəti Bayraməli şəhərinin hüquq-mühafizə orqanları gözəllik salonlarının işçilərinə xəbərdarlıq edib ki, qadağan olunmuş xidmətlərin göstərilməsinə davam edəcəkləri təqdirdə cərimə olunacaqlar, hətta azadlıqdan da məhrum edilə bilərlər. Gözəllik salonlarının işçiləri isə məhz bu xidmətlər sayəsində dolandıqlarını, qazanc əldə etdiklərini deyərək, qadağaların tətbiqinin onların sonu olacağını deyir. Estetik əməliyyatlara qadağaların hansı səbəblə tətbiq edildiyi açıqlanmır. Ehtimal edilir ki, Türkmənistanın yeni prezidenti, görünür, türkmən qadınlarının təbii gözəlliklərini və özəl xüsusiyyətlərini, türkmənlərə məxsus üz cizgilərini getdikcə itirmələrindən narahatdır. Belədirsə, əlbəttə, bu artıq milli məsələdir. Həqiqətən də müxtəlif estetik əməliyyatlar son 10 ildə çox geniş yayılıb. Qadınlar, hətta artıq kişilər də inkubator cücəsi kimi bir-birinə bənzəyir. Cəmiyyətdə fərqliliyin yerini monotonluq tutur. Vaxtilə heyrətlə izlədiyim yadplanetlilərə bənzəməyə başlayırıq. Görüntünü bir kəanra qoysaq, şübhəsiz, lazımsız estetik əməliyyatlar sağlamlığa da ziyandır.

Fəlsəfə doktoru Şəmsiyyə Namazlı "Şərq"ə açıqlamasında estetik əməliyyatların geniş yayıldığını dedi:

- Bu bir gerçəklikdir ki, son illərdə estetik əməliyyatlar çox yayılıb, az qala 2 nəfərdən biri estetik əməliyyat etdirir. Dünya miqyasında bu sahədə inkişaf var. Müxtəlif vasitələr meydana çıxır, insan üzərində tətbiq edilir. Estetik və ya kosmetik əməliyyat o zaman zəruri hal alır ki, sağlamlığa ziyanı olsun.

Deyək ki, əgər birisinin nəfəs almasında problem varsa, burun çəpəri əyriliyi səbəbindən çətin nəfəs alırsa, dodaqlarında hansısa qeyri-estetik görünüş varsa, üz dərisində keçirdiyi hansısa xəstəlik səbəbiylə qüsurlar yaranıbsa... bu zaman estetik əməliyyat vacib hal alır. Amma zərurət yoxdursa, insanın üz cizgiləri normaldırsa, ona kənar müdaxilə düzgün deyil.



***İnsanlar standart görkəm alır artıq, görünür buna görə Türkmənistan qadağalara başlayıb***

(Davamı səh:7-də)

**Məlahət**

## 10,7 milyon dollar dəyərindədir

### Dünyanın ən böyük brilyantlarından biri hərraca çıxarılacaq



**"Christie's" satış evi dünyanın ən böyük cilalanmış brilyantlarından biri olan "Qırmızı Xaçı" Cenevrə şəhərində keçiriləcək hərraca çıxaracaq.**

Azərtac bildirir ki, satış evinin məlumatına görə, almazın ilkin qiyməti 7-10 milyon İsveçrə frankı (7,5 - 10,7 milyon ABŞ dolları) arasında dəyişir.

"Qırmızı Xaç" aprelin 29-dan mayın 1-dək Nyu-York şəhərindəki "Christie's" qalereyasında nümayiş etdiriləcək, mayın 11-də isə hərraca çıxarılacaq. Satış evinin idarə heyətinin sədri Fransua Kuriel əldə olunan gəlirin bir hissəsinin Beynəlxalq Qırmızı Xaç Komitəsinə veriləcəyini bildirib.

Çəkisi 205,07 karat olan "Qırmızı Xaç" brilyantı 1901-ci ildə "De Beers" kompaniyasının Cənubi Afrikadakı mədənlərindən birində aşkarlanıb. Almaz cilalandıqdan sonra yuxarı ona üzdən baxdıqda səkkizguşəli Malta xaçı aydın şəkildə görünür. Brilyantın adı da buradan götürülüb.

"Christie's" bundan öncə həmin brilyantı artıq iki dəfə hərraca çıxarıb. O, ilk dəfə I Dünya Müharibəsi zamanı Britaniya Qırmızı Xaç Komitəsi və Müqəddəs İoann ordeni adından 10 min funta (hazırkı məzənnə ilə təxminən 780 min dollar) satılıb. Hərracdan əldə edilən bütün vəsait dərmanlara və xəstəxanalara xərclənib. İkinci dəfə hərraca çıxarılan qiymətli daş 1973-cü ildə 1,8 milyon İsveçrə frankına (təxminən 4,7 milyon dollar) alıcı tapıb. Qiymətli daşın sahibinin adı açıqlanmır.

## Kişinin gözündən milçək sürfələri çıxarıldı



**Bağda ağac, gülləri əkib-becərən kişinin gözündə qızartı və qaşınma əlamətləri başlayıb. O, xəstəxanaya yardım üçün gedib.**

Bakupost.az xəbər verir ki, xəstə gözünün içində nəyinsə gəzişib tərpəndiyini hiss edir.

Həkimlər müayinə zamanı onun gözündə şəffaf rəngdə sürfələr tapıblar. Məlum olub ki, bunlar milşək sürfələridir.

Həkimlər göz almasının xarici hissəsində 10-dan çox milçək yumurtası aşkarlayıblar. Onlar gözün içində hərəkətdə idilər. Onları şipsilərin köməyilə çıxarıblar.

Kişinin sözlərinə görə, o at və quzu fermasının yanındakı bağda işləyirmiş. Bu zaman o, quzu və at balalarını sığallayıb, üzünü onlara yaxınlaşdırıb.

Bu ərəfədə heyvanların burnu, gözü və tükündə yumurta qoymuş milçəyin sürfələri kişiyə keçib.

Adətən milçəklər keçi və quzu, qoyunlarda yumurta qoyur, nadir halda insanları da yoluxdurur.